Bu bir xalq qəzetidi
ƏDALƏT

## Spiker: Digər rayonlarımızın da azad ediləcəyi gün uzaqda deyil



**Azərbaycan Respublikasının Prezidentinin də dediyi kimi, Dağlıq Qarabağ bizim torpağımızdır, ərazi bütövlüyümüz təmin edilməlidir.**

Adalet.az-ın məlumatına görə, bunu Milli Məclisin iclasında spiker Sahibə Qafarova deyib. O bildirib ki, daha böyük uğurlar bizi gözləyir: ”Cəbrayıl artıq işğaldan azad edilib. Digər rayonlarımızın da azad ediləcəyi gün uzaqda deyil.

Əldə edilən uğurlar zamanı itkilər də olur. Bütün şəhidlərə Allahdan rəhmət, yaralılara isə şəfa diləyirəm. Əminəm ki, bu gün dövlət başçısı və xalq arasında olan birliyin nəticəsində Qarabağın bütün yerlərində şanlı Azərbaycan bayrağı dalğalanacaq”.

**Hikmət Həsənovun bu günlərdə ad günüdür. Qabaqcadan təbrik edirik ki, Mayis Bərxudarovla birlikdə bizlərə Füzulini hədiyyə etsinlər.**



## Putin: Döyüşlər Ermənistan ərazisində aparılmır



**Rusiya Prezidenti Vladimir Putin Dağlıq Qarabağ ətrafındakı vəziyyəti faciə adlandırıb və Rusiyada bununla bağlı çox narahat olduqlarını bildirib.**

Adalet.az-ın məlumatına görə, o bu sözləri "Rossiya 24" telekanalına müsahibəsində deyib. V.Putin bu münaqişənin tezliklə başa çatacağına ümidvar olduğunu bildirib:

"Münaqişə tamamilə başa çatmasa və belə görünür ki, bu, tezliklə olmayacaq, ancaq biz bunun üçün çağırışlar edirik. Mən bir daha demək istəyirəm ki, biz atəşi dayandırmağa çağırırıq, bunu mümkün qədər tezliklə etmək lazımdır".

Rusiya Prezidenti əlavə edib ki, Ermənistan rəhbərliyinin Rusiyaya müttəfiqlik öhdəliklərinin icrası ilə bağlı sualı yoxdur:

"Məlum olduğu kimi, Ermənistan KTMT üzvüdür və bizim bu müqavilə çərçivəsində müəyyən öhdəliklərimiz var. Çox təəssüf ki, döyüşlər hələ də davam edir. Amma döyüşlər Ermənistan ərazisində aparılmır. Öhdəliklərimizə gəldikdə, biz onları yerinə yetirmişik, yerinə yetiririk və yerinə yetirəcəyik".

*Əbülfət MƏDƏTOĞLU*
*Əməkdar jurnalist*

## SEVİNCDƏN QAYNAQLANAN GÖZ YAŞLARI

### Biz böyük qələbəni yaşamağa hazırlaşırıq

Bax:səh-2

## EMİN PİRİ NİYƏ DİLXORDU?



Qarabağ uğrunda savaş başlayan kimi qəzetimizin əməkdaşı Emin Piri könüllü olaraq bir zabit kimi cəbhəyə yollandı. Artıq neçə gündür ki, döyüş bölgəsində qulluq edir. Dünən gecə bizimlə əlaqə saxlayıb bərk dilxor olduğunu bildirdi:

**- Belə şey olar, on gündür burdayam, hələ məni döyüşə buraxmayıblar.**

Biz də dedik ki, şair, narahat olma, inşallah, Füzuliyə bayrağı sən sancarsan.

## *İradə Tuncay:*

## Qara Keşişdi bunlar...



**İndi bu barədə danışmaq yerinə düşürmü bilmirəm... Amma bu qövmün başbilənləri həmişə onları faciələrə sürükləyib. Heç nəyi düşünməyib. Harda yaşadıqlarını, kimlərlə qonşu olduğunu anlada bilməyib...İstər İran coğrafiyasında ,istər Turan coğrafiyasında saraylarda önəmli yerlərə sahib olublar amma azlıq edib. İtələyiblər xaosa...Gözəl həyatların məhv ediblər... Ziyalıları da xəstə təfəkkürlüdü. Tək-tək adamları anlayıb ki,olmaz nifrətlə yaşamaq. Qara Keşişdi bunlar...**

## AĞILSIZ KÖPƏKLƏR ƏRDOĞANA HÜRƏR



**Ayın 6-da gecə saatlarında Solovyov "Rossiya 1" kanalında yenə özü kimi bir sürü şərəfsizi başına yığıb Qarabağı müzakirə edirdi. Baqdasarov familiyalı bir erməni də özünü cırırdı. Guya sayın Ərdoğan min nəfərdən çox Özgür Suriya Ordusunun əsgərlərini Qarabağa savaşa göndərib. Və deyir ki, Rusiya niyə buna reaksiya vermir, gedib Suriyada terrorçuları məhv etdiyi kimi, raket atəşinə tutduğu kimi Qarabağda da Azərbaycanın mövqelərini raket atəşinə tutmalıdı.**

Solovyov və digərləri də ona dəstək verirdilər ki, biz razı ola bilmərik ki, bizim sərhədlərimizdən yüz kilometr aralıda terrorçular toplaşsın.

Və dəqiqədən bir də qardaş dövlətin Cümhurbaşkanı Sayın Ərdoğanı hədəf alıb aşağılayırdılar.

Sonra da PKK-ya haqq qazandırırdı ki, PKK terror təşkilatı deyil, yəni Ermənistan onlardan istifadə edə bilər.

Əvvəla, Rusiyanın ölkəmizdə kəşfiyyat orqanlarının işlədiyi sirr deyil. İkincisi də, kosmos Rusiyanın əlindədi. Əgər orda bircə nəfər də Özgür Suriya Ordusunun əsgərini tapsaydılar indi Baqdasarov kimi Rusiya da özünü cırırdı.

Sonra deyir ki, Türkiyənin, özü də türk pilotlarının idarə elədiyi "F-16"-larla Ermənistanın iki qırıcı təyyarəsini vurublar. Azərbaycanda "F-16" yoxdu, bunu Rusiya da çox gözəl bilir. Və həmin qırıcılar dağa dəyib partlayıb, bu da sübut olunub.

Ermənistan öz ərazilərindən Azərbaycanı, Gəncədən tutmuş Mingəçevirə qədər raket atəşinə tutur, indiyədək 27 dinc əhali həlak olub, 60-a yaxını yaralanıb. Nə qədər evlər dağılıb və nə qədər də ictimai binalar partladılıb. Hətta buna haqq qazandırırlar.

Eybi yox, it hürər karvan keçər, daha doğrusu, bizim əsgərlər keçib torpaqlarımızı azad edər və Səməd Vurğun demiş:

**Ağılsız köpəklər Ərdoğana hürər.**

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 136 (5796) 8 oktyabr 2020-ci il | Qiyməti 30 qəpik

# “Münaqişənin tənzimlənməsi ilə bağlı danışıqlar mənasızdır”



**Ermənistanın indiki siyasəti fonunda Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı danışıqlar mənasızdır.**

**Bunu Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu TASS agentliyinə müsahibəsində deyib.**

**Səfir bildirib ki, Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovla Rusiyanın Xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı zamanı tərəflərin tezliklə danışıqlar masasına qayıtmasının zərurəti vurğulanıb:**

**”Amma Ermənistan qoşunlarının hərbi əməliyyatların coğrafiyasını genişləndirdiyi, təxribatçı şəkildə Azərbaycanın Dağlıq Qarabağla sərhəd olmayan şəhər və rayonlarına hücum etdiyi, beynəlxalq hüququ kobud şəkildə pozduğu və əvvəl də dedyim kimi, hərbi cinayətlər işlədiyi bir vaxtda hər hansı danışıqların aparılması mənasızdır.**

**Prezident İlham Əliyev öz müsahibələrində açıq şəkildə bildirib ki, münaqişənin gərginləşməsinə görə bütün məsuliyyəti üzərində daşıyan Ermənistan beynəlxalq hüquqa əməl etmədikcə, beynəlxalq vasitəçilər ərazilərin işğalda azad olunmasına ciddi təminatlar vermədikcə və qoşunların Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının konkret cədvəli təqdim olunmadıqca hərbi əməliyyatların başa çatması və hər hansı danışıqlar mümkün deyil”.**

## “Ermənistanın raket zərbələri bu ölkənin hərbi doktrinasının aqressiv xarakterini nümayiş etdirdi”



**Ermənistan tərəfindən raket zərbələri bu ölkənin hərbi doktrinasının aqressiv xarakterini nümayiş etdirdi.**

Adalet.az-ın məlumatına görə, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz ”Twitter” səhifəsində yazıb. O bildirib ki, qoşunların təmas xəttində vəziyyətin gərginləşməsinədək Ermənistan Azərbaycanın enerji infrastrukturuna, xüsusilə də Mingəçevir su anbarına raket zərbələri ilə təhdid edirdi:

**”Son dövrlərdəki raket zərbələri bu ölkənin hərbi doktrinasının aqressiv xarakterini nümayiş etdirdi”.**

## SEÇKİLƏRDƏ MAKRONA TÜRK ŞAPALAĞI DƏYƏCƏK



*Seçkilərdə ermənilərin səsini qazanmaq xatirinə Ermənistan üçün özünü cırıq-cırıq edən Makrona seçkilər zamanı gözəl bir türk şapalağı dəyəcək.*

*İctimai Televiziyanın "Sabahın xeyir, Azərbaycan" proqramının qonağı olan, professor Aygün Attar (təqdim etməyə ehtiyac yoxdur, bütün xalqımız onu çox gözəl tanıyır) Fransa ilə bağlı çox maraqlı açıqlamalar etdi. Əvvəla, onu qeyd edək ki, 27 sentyabrdan sonra, savaş başlanandan Aygün xanım mənəvi dəstək üçün Ankaradan Bakıya gəlib. Aygün xanım bildirdi ki, əgər Fransada 500 min erməni kökənli seçici varsa, 750 min Fransa vətəndaşı olan türk seçici var. Və bundan başqa Fransada səsvermə səlahiyyəti olan minlərlə azərbaycanlı var.*

*Xanım yüksək mədəniyyət sahibidir, ona görə də açıq demədi ki, seçkilərdə Makrona türk şapalağı dəyəcək. Amma sözlərindən belə çıxdı.*

*Aygün xanımın əllərindən öpürəm.*

## Laçın nənənin tikdiyi bayraq Şuşanın üzərində dalğalanacaq



**Qarabağ münaqişəsinin başlanğıcında, Azərbaycan suverenlik yoluna yeni başlayanda, Ermənistanla həmsərhəd olan Tovuz kəndlərində üçrəngli Azərbaycan bayrağını tapmaq asan deyildi.**

"Sputnik Azərbaycan" xəbər verir ki, o zaman Ağdam kənd sakini Laçın Bağırova bu problemi öz üzərinə götürmək qərarına gəlib.

Onun tikdirdiyi bayraqlar sərhəd kəndlərinin ən yüksək nöqtələrində özünümüdafiə batalyonlarının döyüş bayrağı oldu. Atəşkəs tətbiq edilən zaman Laçın nənə tikiş maşınını kənara qoyub. Lakin son günlər cəbhədə Azərbaycan ordusunun uğurlu əks-hücumu ona ilham verir.

85 yaşlı nənənin tikiş maşını yenidən işə başlayıb.

Bu dəfə o, tikdiyi bayrağın azad edilmiş Şuşanın üzərində dalğalanacağına ümid edir və buna inanır.

## *Müdafiə Nazirliyi əks-hücumun davam etdirilməsinə qərar verdi*

*Oktyabrın 6-da Müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə xüsusi xidməti müşavirə keçirilib.*

*Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.*

*Bildirilib ki, müşavirədə aparılan əks-hücum əməliyyatında hazırda mövcud olan vəziyyət təhlil olunaraq, düşmən qüvvələrinin planlı, məqsədyönlü və ardıcıl darmadağın edilməsinin davam etdirilməsi tapşırılıb.*

*Müdafiə naziri qoşunlara azad olunmuş ərazilərdə həyati əhəmiyyətli və ilkin zəruri tədbirlərin görülməsinə göstəriş verib.*

*Müdafiə naziri düşmən tərəfindən "İsgəndər" əməliyyat-taktiki raket komplekslərinin tətbiq olunacağı halda, adekvat tədbir görüləcəyini bildirib.*

*Nazir Azərbaycan Ordusuna arsenalındakı yüksək dəqiqlikli və böyük dağıdıcı qüvvəyə malik silah növlərini tətbiq etməklə düşmən tərəfinin hərbi-strateji infrastrukturuna böyük zərbələr endirməyi planlaşdırmağı əmr edib.*

## Dünyanın ən dadlı narı və ən xoşbəxt adamı



**Azərbaycan Ordusunun mayoru Camal Qəmbərovun 27 ildən sonra doğulduğu Cəbrayıl rayonundan fotosu yayılıb.**

Şəkil sosial şəbəkədə paylaşılıb. Bildirilib ki, o, 7 yaşında ermənilərin işğalından sonra Cəbrayıldakı evini tərk edib və 27 il sonra doğma torpağını işğaldan azad edən şəxs kimi geri dönüb.

## *SOCAR: Ermənistan BTC-ni hədəf almaqla Aİ-nin də enerji təhlükəsizliyinə qarşı ciddi təhlükələr yaradır*

**Ermənistanın silahlı qüvvələri tərəfindən Yevlax rayonu ərazisində Bakı-Tbilisi-Ceyhan (BTC) neft boru kəmərini hədəf alan raket zərbələrinin qarşısı alınıb.**

SOCAR-dan bildirilib ki, BTC ixrac boru kəməri hazırda əvvəlki kimi öz fəaliyyətini davam etdirir: "BTC boru kəmərinin paydaşları arasında dünyanın müxtəlif aparıcı enerji şirkətləri yer almaqdadır. Azərbaycanın neft-qaz infrastrukturunu hədəfə almaqla Ermənistan təkcə bizim ölkənin deyil, Avropa Birliyinin də enerji təhlükəsizliyinə qarşı ciddi təhlükələr yaradır. Bu təhdid yeni deyil, sonuncu dəfə cari ilin İyul ayında Tovuz rayonunda Ermənistan silahlı qüvvələrinin hücumu beynəlxalq əhəmiyyətli neft-qaz infrastrukturumuzu birbaşa təhlükə altına qoymuşdu". SOCAR-dan bildirilib ki, Dağlıq Qarabağ və Azərbaycanın ətraf rayonlarının Ermənistanın uzunmüddətli işğalı altında olması beynəlxalq neft və qaz boru kəmərləri üçün daimi təhdid və təhlükə mənbəyidir: "Azərbaycanın Milli Ordusu hazırda Ermənistanın hücumlarını dəf etməklə, bu infrastrukturun təhlükəsizliyini təmin edən əsas faktordur. Azərbaycan Ordusunun hazırkı əks-həmlə əməliyyatı işğal altında olan əraziləri tam azad etməklə Ermənistanın təhdidlərini tam aradan qaldıra biləcək yeganə faktor kimi görünür. Bu isə boru kəmərlərimizin davamlı təhlükəsizliyini də təmin edəcək".

***Mehman CAVADOĞLU***

## XUDAFƏRİN – MİLLİ BİRLİK SİMVOLU



**Tələbəlik dövründə qrup yoldaşlarım Əlyar və rəhmətlik Tehranın dəvətiylə onlara, bu günlərdə erməni işğalından azad olunmuş Füzulinin Horadiz və Cəbrayılın Mahmudlu kəndlərinə qonaq getmişdim. Hər iki rayon İranla sərhəd zonasında yerləşdiyi üçün o vaxtlar başqa bölgələrin sakinləri üçün oralara gediş-gəliş qadağan idi, bundan ötrü xüsusi dövlət qurumlarından icazə almaq lazım idi. Bu da çox qəliz məsləydi, ən sadə yolu ezamiyyə vərəqsiydi ki, onu almağa da tələbənin əli çatmırdı. Bir sözlə, Sovet hökuməti öz matah sərhəddini təkcə üçqat tikanlı məftillərlə qorumurdu, onun 50-60 kilometrliyinə belə yaxın düşmək qeyri-mümkün idi.**

(Ardı 3-cü səhifədə)

*Can Ataklı*

## Sən nə imişsən, ay 7

Bax:səh-4

## *Oxucuların nəzərinə!*

***Pandemiya ilə əlaqədar sərt karantin rejimi uzadıldığına görə qəzetimiz bu ay həftədə 3 dəfə - 2, 4, 6-cı günlər çap olunacaq. Buna görə oxucularımızdan üzr istəyirik.***

## Ruhani: İşğalçılıq heç bir vəchlə qəbul ediləsi deyil

**İran üçün işğalçılıq heç bir vəchlə qəbul ediləsi deyil.**

Bunu İran Prezidenti Həsən Ruhani bu gün İran hökuməti üzvlərinin iclasında deyib.

H.Ruhaninin sözlərinə görə, bu məsələdə qonşu ölkənin haqqını vermək lazımdır: ”Region çox həssas regiondur. İran müharibənin heç kimin xeyrinə olmadığını hesab edir. Siyasi yollarla, siyasi fəaliyyətlə bu məsələni həll etmək olar.

Önəmli olan budur ki, bu müharibə regional müharibəyə çevrilməməlidir. Hamı reallığı qəbul etməli, hamı ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşmalıdır”.

Ruhani bildirib ki, heç bir məsələ müharibə ilə həll olunmur, başqa yollar da mövcuddur. İran bu istiqamətdə hər bir köməyi etməyə hazırdır:

**”İran Azərbaycan xalqının hüququna hörmətlə yanaşır və Azərbaycanın ərazi bütövlüyünə təkid edir. Azərbaycan İran üçün qardaş ölkədir.”**

## Prezident İlham Əliyev Vladimir Putini ad günü münasibətilə təbrik edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.**

Azərbaycan Prezidentinin Mətbuat Xidmətindən verilən məlumata görə, dövlətimizin başçısı Rusiya Prezidentini ad günü münasibətilə təbrik edib, Rusiyanın inkişafı və firavanlığı naminə dövlətçilik fəaliyyətində ona yeni uğurlar, möhkəm cansağlığı arzulayıb.

Vladimir Putin göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı dövlət başçıları Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar yaranmış vəziyyəti müzakirə ediblər. Prezident İlham Əliyev və Prezident Vladimir Putin Azərbaycan-Rusiya əlaqələrinin perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## İlham Əliyev: “Bütün dünya gördü ki, Azərbaycan tək deyil”

**Xəbər verdiyimiz kimi, Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyəti Azərbaycana səfər edib.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev nümayəndə heyətini qəbul edərkən bu səfərin xüsusi önəm daşıdığını vurğulayıb. Dövlətimizin başçısı deyib: ”Siz Azərbaycanda dəfələrlə olmusunuz. Amma Azərbaycan üçün o qədər də asan olmayan bir dönəmdə sizin gəlməyiniz əlbəttə ki, xüsusi önəm daşıyır. Bu, qardaş ölkənin açıq dəstəyinin təzahürüdür. Bu dəstəyə görə Azərbaycan xalqı qardaş Türk xalqına və onun Prezidentinə dərin minnətdarlıq hissi ilə yaşayır”.

Prezident İlham Əliyev qeyd edib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qətiyyətli bəyanatları bütün dünyaya Azərbaycanın tək olmadığını göstərdi.

”Mənim əziz qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan ilə bu günlərdə təmaslarım onun çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

## İlham Əliyev Madagizin Suqovuşan adlandırılması haqqında qanunu təsdiqləyib

**Prezident İlham Əliyev Azərbaycan Respublikasının Tərtər rayonunun Madagiz kəndinin Suqovuşan kəndi adlandırılması haqqında qanunu təsdiqləyib.**

Qeyd edilir ki, Azərbaycan Respublikasının Tərtər rayonunun Çaylı kənd inzibati ərazi dairəsi tərkibindəki Madagiz kəndi Suqovuşan kəndi adlandırılsın.

## “Düşmən alçaq hərəkətlərə əl atır”

**Ermənistan tərəfindən və Dağlıq Qarabağ tərəfindən artilleriya atəşləri nəticəsində bu gün səhərə olan məlumata görə, bizim tərəfdən 27 dinc sakin həlak olub, 170-dən çox dinc sakin müxtəlif dərəcəli xəsarətlər alıb, 800-dən çox ev dağıdılıb. Qarşıdurmanın budəfəki eskalasiyası sentyabrın 27-də başlanıb. O vaxt Azərbaycanın işğal edilmiş ərazilərindən bizim yaşayış məntəqələrinə, habelə döyüş mövqelərimizə artilleriya atəşləri başlanıb, nəticədə bu hücumun elə ilk dəqiqələrində dinc sakinlər və hərbi qulluqçular həlak olub.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Rusiyanın ”Pervıy Kanal” televiziyasına müsahibəsində məlumat verib. Azərbaycanın adekvat tədbirlər görməyə məcbur olduğunu, ordumuzun operativ surətdə əks-hücuma keçdiyini vurğulayan dövlətimizin başçısı deyib: ”Bu əks-hücum nəticəsində düşmənin çox sayda atəş nöqtələrini, döyüş mövqelərini susdurduq, şimal və cənub istiqamətlərində işğal altında olan ərazilərin bir hissəsini azad etdik, bununla da Azərbaycanın bir sıra yaşayış məntəqələri, oradakı vətəndaşlar bu gün artıq normal şəraitdə yaşaya bilərlər, çünki ermənilərin artilleriya atəşləri artıq oraya çatmır. Lakin son günlərdə Azərbaycan ərazilərinə artilleriya atəşləri Ermənistan tərəfindən uzaqvuran artilleriya vasitəsilə aparılır, ”Toçka U” və ”Elbrus” kimi ölümsaçan sistemlərdən istifadə edilir, bu, Cenevrə konvensiyalarının çox kobud şəkildə pozulmasıdır, cinayətdir, müharibə cinayətidir. Bu gün səhərdən münaqişə zonasının bilavasitə yaxınlığında yerləşən Tərtər şəhərinin atəşə tutulması yenidən davam edir. Əhalisinin sayına görə Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin əhalisi də atəşə tutulub. Mingəçevirdə bizim ən böyük elektrik stansiyasının ərazisinə bir raket düşüb, 10-dan çox şəhərimiz, yüzlərlə kəndimiz şiddətli artilleriya bombardmanına məruz qalır”. Prezident İlham Əliyev qeyd edib ki, bu, erməni tərəfin köhnə taktikasıdır. ”Onlar hər dəfə döyüş meydanında məğlubiyyətə uğrayanda dinc əhaliyə ziyan vurmağa və beləliklə, Azərbaycan Ordusunun əks-hücumunu dayandırmağa çalışaraq belə alçaq hərəkətlərə əl atırlar. Lakin onlar bu əks-hücumu dayandıra bilmirlər və bilməyəcəklər”, - deyə Azərbaycan Prezidenti vurğulayıb.

# SEVİNCDƏN QAYNAQLANAN GÖZ YAŞLARI

## Biz böyük qələbəni yaşamağa hazırlaşırıq

**Bu gün Azərbaycan azad olunan torpaqlarının sevincini yaşayır. Hər evdə, hər ailədə azad olunan kəndlərimizin, şəhərlərimizin adı alqışlarla qarşılanır... sevinc göz yaşları ilə süslənir... İgid oğullarımızın şəninə dilimizə ən xoş kəlmələr, ən gözəl dualar gətirilir... Hər kəsin içindəki fəxarət hissi onu döyüşə, səngərə səsləyir... İlk dəfədir ki, Azərbaycan cəmiyyəti, Azərbaycan insanı belə bir coşqu yaşayır. Bununla bağlı düşüncələrimi bilgisayara diqtə edərkən oktyabrın 4-də xalqımıza ikinci dəfə müraciət edən Ali Baş Komandanımız, prezidentimiz cənab İlham Əliyevin söylədikləri yadıma düşdü. Ali Baş Komandan vurğuladı ki, ”Əziz həmvətənlər! Bu gün Cəbrayıl şəhəri və Cəbrayıl rayonunun 9 kəndi işğaldan azad edildi. Bu tarixi hadisə münasibəti ilə Azərbaycan xalqını ürəkdən təbrik edirəm!... Uzun illərdən sonra Cəbrayıl şəhəri azad edildi, Cəbrayıl bizimdir!”.**



Mən Prezidentimizin müraciətinin efirdə səsləndirdiyi anı heç vaxt unutmayacam. Yaşadığım Masazır ərazisində məskunlaşmış Cəbrayıl qaçqınlarının necə qışqıraraq ”ura!” sədaları altında küçəyə axışdıqlarını indi də gözümün önünə gətirəndə özümü ələ ala bilmirəm. Həqiqətən bu çox möhtəşəm an idi. Düşünürəm ki, biz bu anın pik nöqtəsini Şuşaya bayraq sancılanda yaşayacağıq. Ona görə belə düşünürəm ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan mənə bu inamı bağışladı. Çünki o vurğuladı ki, ***“bu gün cəbrayıllılar sevinc içərisindədilər, necə ki, bütün Azərbaycan xalqı! Dünən bizim qədim yaşayış yerimiz - Suqovuşan qəsəbəmiz işğaldan azad edildi. Bütün Azərbaycan xalqı bu tarixi hadisəni qeyd edirdi, bir-birini təbrik edirdi, göz yaşlarını saxlaya bilmirdi. Bu, sevinc göz yaşlarıdı! 1990-cı illərin əvvəllərində də Azərbaycan göz yaşlarını töküb. Ancaq o, məğlubiyyət göz yaşları idi, o, faciə göz yaşları idi. Bu gün Azərbaycan xalqı sevinc içindədir”.***

Bəli, həqiqətən bu gün xalqımız uşaqdan-böyüyə düşünmək, dərk etmək, görmək, duymaq hissi olan hər kəs sevinir... bu gün dostlarımız sevinir... bu gün bir millət olan Böyük Türk sevinir... Güneydəki qardaşlarımız sevinir... Gürcüstanda, Rusiyada, dünyanın hər yerində yaşayan soydaşlarımız və haqqımızı tanıyanlar sevinir... Bu sevincimizin əhatəsi Yer küresidir... Mən inanıram ki, bizdən də çox şəhidlərimizin ruhu sevinir... Çünki onların qisası alınır... Onların arzuları gerçəkləşir. Və o həm də hər birimizin ürəyində açılan yeni böyük ümidin özüdür. Ali Baş Komandanımız İlham Əliyevin dediyi kimi, ***”Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü qələbə xüsusi yerdədi. Çünki biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik. Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq. Biz haqlıyıq, biz zəfər çalacağıq! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”.***



Ölkə Prezidentinin dediyi bu fikirlər az-çox insanlığı, milli-mənəvi mənsubiyyəti dərketmə imkanı olan hər kəs üçün bir gerçəklik dərsidi, həqiqətin özüdür. Və bu həm də birliyimizin, Ordumuzun gücünün göstəricisidir. Sentyabrın 27-si səhər saatlarından başlanan əks hücum əməliyyatları xalqın birliyinin, Ordunun gücünün, xalq, ordu və hakimiyyətin vəhdətinin təntənəsi oldu. Düşmən gördü ki, indi onun qarşısında hərbi qüdrəti, yüksək döyüş qabiliyyəti, müasir tələblər səviyyəsində idarəetmə qabiliyyəti olan Azərbaycan ordusu dayanır. Bu ordu xalqın gücüdür. Çünki xalqın gücü öz ordusunda, öz Ali Baş Komandanında ifadə olunubdu. Ona görə də ordumuzun açdığı hər bir atəş nişangaha dəyir, düşmənin külünü göyə sovurur. Ali Baş Komandanımızın dediyi kimi, ***”İşğaldan azad olmuş kəndlərin sakinləri, sizə müraciət edirəm, sizin həsrətinə son qoyulur və bizim digər bütün qaçqın, köçkün soydaşlarımız bilsinlər ki, biz onları da öz dədə-baba torpaqlarına qaytaracağıq. Güc yolu ilə!”.***

Artıq Ali Baş Komandanın vurğuladığı kimi, düşmən öz məkrinin qurbanına çevrilib. O, sülh danışıqlarını, problemin çözüm variantlarını oyuncağa, vaxt qazanmağa hesabladığı üçün sonda ordumuzla üz-üzə qaldı. Bu ordu isə xalqın arzusunu çin edir, haqqını özünə qaytarır. Ona görə də Azərbaycan prezidenti İlham Əliyev cənablarının, Türkiyənin, Rusiyanın, Ərəb Əmirliyinin və digər ölkələrin telekanallarına verdiyi müsahibədə birmənalı şəkildə vurğulanlır ki, Dağlıq Qarabağ probleminin, işğal olunmuş torpaqlarımızın çözümünün bir yolu var: o da düşmən işğalçı ordusunun Azərbaycan torpaqlarından çıxarılmasıdır. Fikirlərimi Ali Baş Komandanın fikirləri ilə tamamlayıram. ***”Bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır və dünyanın heç bir ölkəsi ”Dağlıq Qarabağ Respublikasını” tanımır. Mənim söylədiyim sözlər demək olar ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin mətnidir. Onlar bizim ərazilərimizi tərk etməlidir və yalnız ondan sonra müharibə dayanacaq, münaqişəyə son qoyulacaq!”***

Bu gün ordumuz yeni-yeni əraziləri, yüksəklikləri işğalçılardan təmizləyir. Və bu yüksəkliklərdən bir yol görünür:

### *Şuşanın yolu!..*

**Aramsız**
**güllə yağışı**
**bələyir torpağı**
**dəlib keçir**
**daşı,**
**otu,**
**ağacı,**
**yarpağı...**
**bir igid**
**sol əliylə**
**sıxıb ürəyini-**
**dizi üstə**
**qana boyanıb**
**barmağı-**
**ovcu qan dolu...**
**sağ əliylə**
**tutub bayrağı**
**güclə dayanıb**
**baxır,**
**baxır**
**və bağırır:**
**irəli, qardaşlar,**
**görünür Şuşanın yolu!..**

Bəli, biz məhz o anı gözləyirik. Və o anın da sevincini artıq yaşamağa başlamışıq. Allah Ordumuzu, onun Ali Baş Komandanını və Xalqımızı qorusun! Allah Türkü qorusun!

**Əbülfət MƏDƏTOĞLU**
**Əməkdar jurnalist**

# "Cəbhədən - yeganə oğlum Mobildən qələbə xəbəri gözləyirəm"

## Ağdamdan REPORTAJ

**Ermənistan Silahlı Qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində 5 oktyabra olan məlumata görə, həlak olmuş şəxslərin sayı 24-ə, xəsarət alanların sayı isə 121-ə çatıb. Bundan başqa, Ermənistanın ordusunun intensiv ağırartilleriya və raket atəşi nəticəsində 306 evə və 56 mülki obyektə ciddi ziyan dəyib.**

Rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

Qeyd edək ki, Agdam rayonun təmas xəttində yerləşən Çəmənli, Əhmədağalı. Mahrızlı, Zəngişalı. Qaradağlı. Əfətli, Çıraqlı, Mirəşelli, Orta Qərvənd, Ayaq Qərvənd, eləcədə, təmas xəttində olmayan Xındırıstan, Quzanlı, İmamqulubəyli, və əhalisi sıx olan 4-5 köçkün qəsəbəsidə Ermənistan Silahlı Qüvvələri tərəfindən mütəmadi olaraq ağır artilleriya və raket atəşinə məruz qalır. Bildiyiniz kmi, bu döyüş bölgəsində də əhalinin yaralanması və insan itkisi qeydiyyata alınıb. Odurki, dinc əhaliy əmüvəqqəti olaraq təmas xəttindən kənar ərazilərə yerləşdirlməsi məsləhət görülüb. Bun baxmayaraq, təmas xəttindən, mütəmadi bombalanan ərazilərdən əhalinin bir qismi: yaşlılar, qadınlar, uşaqlar Quzanlı kəndinə pənah gətiriblər.

***Aldığım məlumata görə, ”Tərəqqi” Sosial İnkişaf İctimai Birliyi Milli Qeyri-Hökümət Təşkilatının Agdam regional ofisində 30 nəfər müvəqqəti olaraq yerləşdirilib.Birliyin sədriTelman Dadaşovla söhbətimizdə o bildirdiki, ofisin işini dayandırıb, yol kənarlarında savaşın, mərmi atışlarının bitməsini gözləyən dinc əhalini rahat bir yerə yerləşdirməyi özümə borc bildim: ” Bu səbəbdən də onların yerləşdirilməsinə canla-başla. ailəlikcə qoşulduq. Həyat yoldaşım Şərqiyyə Dadaşova ilə birlikdə ofisin boşaldılması, oranın rahatlanması və camaatın istifadəsinə verilməsi üçün xeyli iş gördük . Hazırda qonaqlarımızın yerləri rahatdır və ən xırda problemlərinə yardımçı olmağa çalışırıq, məncə, yardımçı oluruq.***

Düşündük ki, ağdamlıların əhval-ruhiyysini öyrənmək, onların düşüncələri ilə tanış olmaq da bizim borcumuzdu. Odur ki, Telman müəllimin qonaqları ilə yaxından tanış olmağa qərar veririk.

Ağdam rayonun Şıxlar kəndindən olan SahibəNovruzovayla söhbətlşirik:

**-Sevincinizi gözlərinizdən hiss edirik...**

- Qızım, 1994-cü ildən kəndimiz işğal olunub. Müxtəlif rayonlarda köçkün kimi müvəqqəti qalmışam, amma oralarda qala bilməmişəm. Axırda kəndimizə yaxın yerdə yerləşən Soltanbud meşəsinə gəldim.Meşə ilə kəndimizin arası heç 2 km olmaz. Meşənin içində üzü kəndimizə tərəf bir koma da tikdik. Vallah məni qınamayın, elə bil kəndin havası məni yaşadır. Həyat yoldaşım Şahmar çox təəssüf ki, bu qürurverici günləri yaşa bilmədi, illər öncə haqqın dərgahına qovuşdu. Onun övladı yeganə oğlum isə hazırda döyüşün ən qızgın tərəfindədi.Allah bütün ordumuzu və balam Mobili qorusun! Döyüşə gedəndə dedim ki, bala, tez elə, ermənilərin layiqli cəzasını ver, torpaqlarımızı al, məni kəndimə apar! İndi qızımla oturub, Mobilin gəlib bizi Şıxlara aparmağını gözləyirik.

Ağayev Rafael hazırda ermənilərin mütəmadi bombaladığı Mirəşelli kəndindəndir. Özü birinci Qarabağ müharibəsi iştirakçısı olub. Qardaşı Mübariz isə 1993-cü ildə şəhidlik zirvəsinə ucalan igidlərimizdəndir. R.Ağayevin ən böyük arzusu həm 28 ildir işğalda olan torpaqlarmızın, həm də qardaşı Mübarizin qisasını almaqdı. Amma hələ ki ona çağrış gəlmədiyi üçün intizarla gözləyir. O səbəbdəndə rayon ərazisindən kənara getməyi ağlına da gətirmir.



Əslən rayonun Əlimədədli kəndindən olan, keçmiç OMON-çu, qorxmaz döyüşçü Mehman Məmmədovdan niyə məhz Mirəşellidə məskunlaşdığını soruşduq. O söylədiki, köçkünçülük həyatını Ağdamdan kənarda yaşamağı ailəlikcə ağlımıza da gətirmədik . Mirəşelli ona görə seçdik ki, oradan baxanda bizim dağlar, dağların köksündə boylanan kəndimiz görünür. Evi təmas xəttinin, neytral zonanın 200 metrliyində tikdirdim ki, o dağlara baxmağa heç nə mane olmasın. 27 sentyabrda savaş başladı. Düzü burdan uzaqlaşmaq istəmirdim. Amma həyətə, yaxınlığımızdakı tarlaya ağır artilleriyanın mərmiləri düşəndə artıq orda durmağın mənasız olduğunu anladım! Biz döyüşə hazırıq, qardaşım II qrup Qarabağ əlili Ərəstun da, mən də hərbi komissarlığın çağırışını gözləyirik.

Mirəşellidən olan Vaqif Dadaşov da söhbətə qoşulur: Mən də döyüşçü olmuşam, yerli batalyonlardan birində atəşkəs dövrünə qədər döyüşmüşəm. Neçə dəfə Ağdam rayon hərbi komissarlığına savaşa qatılmaq üçün müraciət etsəmdə oradan bildiriblər ki, hələ ehtiyac yoxdu. Çünki kifayət qədər canlı qüvvəmiz var! Amma hər dəfə bir kənd, bir şəhər azad ediləndə uşaq kimi hönkür-hönkür ağlayıram.Allah Ordumuzu, Xalqımızı və Ali Baş Komandanımızı qorusun!

Gülabə Cəfərova da Şıxlar kəndindəndir. Şairədir, bir neçə şeir kitabı işıq üzü görüb.”Dönəcəyəm vətənimə” adlı kitabı ötən il çapdan çıxıb. Böyük qələbə ümidi ilə yazılmış şeirlərin hər misrasında yurdu üçün çırpınan bir qəlb görürsən. Maraqlı poetik görüşləri, şirin üslubu olan şairə Gülabəni danışdırmağa, onun fikirlərin almağa ehtiyac qalmadı. Çünki şairə xanımın misralarıonsuzda qəlbini pıçıldayırdı:

*Ey məğrur əsgərim, ey mərd əsgərim!*
*Vətənin yolunda qolun güc tapsın,*
*Yurdun düşmənindən geri alınsın,*
*Üç rəngli bayrağın göyə ucalsın!*

Bu gün Quzanlı kəndi və ətraf qəsəbələrə daha çox mərmi atəşinə məruz qalsa da, camaatda nikbin əhval- ruhiyyə də yüksəkdi.

Azərbaycan Prezidenti İlham Əliyev danışıqların başlaması üçün şərtlərini rəsmən elan edib: Azərbaycanın ərazi bütövlüyünü qəbul etməli, işğalçı ordunun Azərbaycan torpaqlarından çıxarılması qrafikini təqdim etməli, ”Qarabağ Ermənistandır” sözünə görə üzr istəməlidir”.

Elşən Dadaşov xəbərlərdən dərhal sonra:”Ali Baş Komandan düz deyir, erməniləri torpaqlarımızdan iti qovan kimi qovmaq lazımdı”-deyib ucadan, ürəklə qəhqəhə çəkdi.

**Digər həmsöhbətlərim Nəzakət və Kamran Qədirovlar (Şıxlar), Arif Məmmədov və həyat yoldaşı Zeynəb xanım (Mirəşelli ), Elşən Dadaşov ordumuzun üstünlüyünü, ard-ardınca azad edilən kənd və şəhərlərin siyahısını, yaxınlıqda bizə nəsib olacaq qələbənin sevincini hər an yaşayırlar! Hamısına yeni-yeni qələbələr, yeni-yeni sevinclər arzulayıb, ev sahibləri, böyük ürək sahibləri Şərqiyyə xanıma, Telman müəllimə təşəkkür edib, yoluma düzəlirəm. Axı sevincini bölüşmək istəyən soydaşlarımız çoxdu...**

**Əntiqə Rəşid**
**”Ədalət” qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri**

# AYAĞA DUR...

**... Sentyabrın 27-dən başlayan böyük savaş məni heç cürə sakit buraxmır. Sentyabrın 29-da Füzulinin Horadiz şəhərində, Araytılı, Babı, Kərimbəyli, Bəhmənli, Əhmədbəyli, Əhmədalılar, Mahmudlu kəndlərində olub əsgərlərimizlə və sakinlərlə görüşəndən sonra elə "isti-isti" yazıları hazırlayıb "Ədalət"də dərc elədik. Və ordakı ruh yüksəkliyini, vətənpərvərlik dəyanətini insanların, ordu ilə həmrəy olduğunu bir daha oxucularımıza çatdırdıq. Elə ki, Bakıda bir neçə gün qaldım, ancaq özümdə heç bir rahatlıq tapmadım. Yenidən döyüşlərin şiddətləndiyi Füzuliyə getdim. Təbii ki, bu ağır döyüşlər zamanı ordunun və xalqın içində olmaq, onların sevinc hissini və mücadiləsini görmək elə özü də böyük xoşbəxtlikdir. Və bir də cəbhə xəttində olarkən insan özünü daha rahat, daha sakit və daha normal hiss eləyir. Hiss eləyir ki, böyük savaşda Azərbaycan əsgərinin, Azərbaycan xalqının və**





**Azərbaycan ordusunun yanındadır. Mən də bu hissi həmişə yaşamışam və ondan qürur duymuşam...**

### *Torpaqlarımızı azad etməyə gedirik*

... Rayon sakinləri yola çıxaraq yolboyu döyüşə gedən əsgərlərimizi salamlayır və xeyir-dua verir. Hərbi maşınların içərisində olan əsgərlərimizə kimi siqaret, kimi ərzaqlar, kimi də gətirdiyi müxtəlif bağlamaları ərməğan edir. Həmin an mənim xanımım və dostum Arif də bu səhnəni görüb sevincdən gözləri yaşarır. Çox möhtəşəm, çox yaddaqalan bir an baş verir. Xalq ordu üçün, mücadilə edən əsgərlərimiz üçün "gözünün yağını" yedirtmək istəyir. Yola çıxan və onlara xeyir-dua verən çoxlu sayda insanlar əllərində Azərbaycan bayrağı dalğalanaraq səslənirlər: "Azərbaycan əsgəri, Allah sizi qorusun!". Və əsgərlərimiz də onlara öz sevgi və məhəbbətini bildirir, əl eləyirlər. Maşındakı bir neçə əsgərimizə yaxınlaşıram. Onlarla salamlaşıb hal-əhval tuturuq. Əsgərlərdən biri kövrəldiyimi görüb deyir ki, əmi, heç də kövrəlib eləmə. Biz döyüşə ölməyə yox, düşməni öldürüb torpaqlarımızı azad etməyə gedirik. Bu Vətən bizi döyüşə çağırır! Əsgərin yanındakı digər bir əsgərimiz isə dillənir ki, bəs Məmməd Araz deməyib ki, "Vətən mənə oğul desə nə dərdim, Mamır olub qayasında bitərdim". Aman Allah, o əsgərlərdəki ruh yük-



səkliyi, onların çöhrəsindəki sevinc hissi çox şeyi deyirdi. Və deyirdi ki, tezliklə torpaqlarımız işğaldan azad ediləcək. Heç iki gün keçmədi ki, o əsgərlərin savaşı və mücadiləsi nəticəsini verdi. Cəbrayıl şəhəri və neçə-neçə kəndi, o cümlədən Füzulinin Aşağı Əbdürəhmanlı 27 illik həsrət-dən sonra erməni işğalından azad olundu.

### *Zobucuqda bir gecə*

*... Zobucuq Füzulinin yeni salınmış qəsəbələrindəndi. Və burda neçə-neçə qəsəbə də var. Üstəlik də minlərlə insan yeni tikilmiş qəsəbədə məskunlaşıb. Digər yaşayış məntəqələrinə nisbətən Zobucuq cəbhə xəttinə daha yaxındır. Və ermənilər də bu yaxınlıqdan istifadə edərək fasiləsiz olaraq yaşayış məntəqəsini artillerya atəşinə tuturlar. Qəsəbənin küçə və yollarında bir sakitlik hökm sürür. Ermənilər isə artilleriyanın atdığı atəşlə bu sakitliyi pozurlar. Amma buna baxmayaraq, qəsəbənin sakinləri və insanlar yaşayış yerlərini tərk etmirlər. Həmin axşam Bəhmənliyə qayıtmaq istəsəm də, ürəyim məni getməyə qoymur. Tanış dostlarımdan birinin evində qalıram. O deyir ki, müəllim, Bəhmənli bura baxanda sakitlikdir. Əgər qorxmursansa, bir axşam da bizdə qal. Şükür Allaha, yeməyə çörəyimiz var, içməyə çayımız. Dostumun sözünü yerə salmıram. Axşam saat 12-yə qədər söhbətləşirik və ara-sıra mərmi səsi eşidilir. Hətta o mərmilərdən biri gəlib yaxınlıqdakı yerə düşür. Mən bir qədər həyəcan keçirsəm də, dostum gözünü də qırpmır. Və deyir ki, müəllim, biz döyüş şəraitində yaşamağa və işləməyə alışmışıq. Səhərə qədər ermənilərin atəşi dayanmır. Azərbaycan ordusu isə həmin hədəfi dəqiqləşdirərək məhv edir. Düzdür, həyəcan keçirsəm də, ancaq hər şeyə normal baxıram. Çünki bu cür döyüş şəraitində çox olmuşam və psixoloji cəhətdən heç nədən çəkinmirəm. Səhər açılanda yuxudan qalxıb Allah verəndən bir tikə çörək yeyib çay içirik, sonra da Bəhmənliyə yola düşürük. Axşamdan atılan bir neçə mərmi yeri aydın görünür. Amma nə mərmilər, nə də ermənilərin digər artilleriya zərbələri Zobucuqda yaşayan mənim dostum kimi yüzlərlə insanı qətiyyən qorxutmur...*

### *Bəhmənlidə sakitlikdi*

Füzulinin Horadiz şəhəri, Alxanlı, Zobucuq, Şükürbəyli, Molla Məhərrəmli, Əhmədalılar, Babı, Araytılı kəndləri ilə müqayisədə Böyük Bəhmənlidə bir qədər sakitlikdir. Amma bu o demək deyil ki, insanlar bu sakitlikdə əlini- əlinin üstünə qoyub oturublar. Kəndin üstündə dövr edən hərbi vertalyot və digər döyüş qüvvələrimiz bir daha xalqı əmin edir ki, ordu onların təhlükəsizliyini təmin edir. Horadizə və digər yerlərə atılan mərmi səsi də burda bərkdən eşidilir. Hətta mərmilər yerə düşəndə evlər silkələnir. Artıq Bəhmənlidə də camaat müharibə şəraitinə uyğunlaşır. Yüzlərlə gənc əllərində bayraq könüllü olaraq döyüşmək istədiklərini bildirirlər. Bununla yanaşı, kəndin könüllüləri kəndin girəcəyində və çıxacağında postlar quraraq nabələd adamları yoxlayırlar. Bu da onunla bağlıdır ki, könüllülər orduya və polisə arxa durur, kənardan gələn şəxslərin kim olduğunu aydınlaşdıra bilirlər. Yəni hər hansı bir təxribatçı qüvvənin kəndə daxil olması çox çətin məsələdir. Ən azından ona görə ki, kənddə hamı hamını tanıyır, kənardan gələnin yad adam olduğunu o dəqiqə hiss edirlər.

### *Erməni əsgərləri torpaqlarımızdan it kimi qovulur*

**Bu sözləri ölkə prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev bu yaxınlarda xalqa müraciət edərkən səsləndirib. Və demək olar ki, artıq Azərbaycan torpaqlarından erməni əsgərləri və muzdlu döyüşçülər it kimi qovulur və it kimi öldürülür. Füzulidən və Cəbrayıldan onların qovulması və torpaqlarımızın azad edilməsi bu dediklərimizə əyani sübutdur. Bu gün Füzulidə cənab prezident, Ali Baş Komandan İlham Əliyevə çox böyük dəstək var. Çünki cənab Prezident çıxışlarının birində dedi ki, "mən Qarabağın azad olunması uğrunda gedən döyüşlərdə şəhid olan əsgərlərimizin və onların valideynlərinin qarşısında baş əyirəm".**

Bu sözlər şəhid ailələrinə və şəhid olan əsgərlərimizin ruhuna çox böyük ehtiram və məhəbbətdir. Böyük Bəh-



mənlidə şəhid Elçin Süleymanovun atası Tehran Süleymanov və şəhid anası Xalidə Süleymanova cənab prezidentin bu həssaslığına və məhəbbətinə görə, ona öz təşəkkürünü bildirir. Şəhid atası Tehran Süleymanov deyir ki, mən inanıram ki, Azərbaycan Əsgəri və Azərbaycan Ordusu mənim oğlum Elçin kimi şəhidlərin qanını yerdı qoymayacaq və onların qisasını alacaqlar. Artıq bu qisas alınır. Cəbrayıl şəhəri və Füzulinin bəzi kəndləri işğaldan azad olunub. Lazım gəlsə, böyük oğlum Telmanı da cəbhəyə göndərəcəm və özüm də silaha sarılıb şəhidlərimizin qisasını alaraq torpaqlarımızı işğaldan azad edəcəyik. Bax, bu gün Bəhmənlidə belə bir böyük ruh yüksəkliyi, vətənpərvərlik hissi var. Prezident İlham Əliyevə və orduya böyük dəstək göstərilir. Və bu dəstəyi heç bir erməni silahı və onun havadarları söndürə bilməz.

### *On Bəhmənli qadını*

... Bu gün cəbhədə tək Azərbaycan Ordusu döyüşməklə qələbə əldə etmək mümkün deyil. Həm də bu qələbədə arxa cəbhə və bütün insanlar müharibə üçün, savaş üçün mücadilə etməlidir. Və sevindirici haldır ki, bu gün Azərbaycanda 10 milyon əhalinin hamısı böyük savaşda iştirak eləyir, hərə öz bacardığı gücü, qüvvəni göstərir. Sirr deyil ki, ordumuzu fasiləsiz olaraq çörək və ərzaqla təmin etmək lazımdır. Füzulidə də ordunu çörəklə təmin edən istehsalat sahəsi var.

***Bu istehsalat sahəsi yerləşən ünvan ermənilər tərəfindən atəşə tutulduğuna görə, orda çalışan qadınlar təhlükə hiss edərək işə getməyiblər. Amma həmin an Bəhmənlidən olan şəhid anaları və 10-a yaxın qadın həmin çörək sexinə gedib üç növbə işləyərək əsgərlərimizə çörək bişirirlər. Mən həmin qadınlarla da görüşdüm, iş başındaydılar. Dedilər ki, bizim onumuz da o döyüşən əsgərlərə qurban! Biz yatmırıq, üç növbə işləyərək, mərmilərin altında Azərbaycan əsgərinə çörək bişiririk. Onlar ac qalsa, çörək sarıdan korluq çəksə, ilan vuran yatar, biz yatmarıq. Biz onumuz da and içmişik, ya burda qalıb savaş qutarana qədər çörək bişirəcəyik, ya da şəhid olmaqla qürur duyacağıq. Amma biz ordumuza inanırıq. Biz şəhid olmayacağıq, Azərbaycan əsgərinə müharibə şəraitində isti çörək bişirib göndərəcəyik.***

### *Uşaqdan böyüyə*

... Hələ indiyə qədər Azərbaycan xalqında 1988-ci ildən Azadlıq meydanında gördüyüm coşqunu bu vaxta kimi görməmişdim. Bax, indi həmin zamandan da daha böyük bir coşqu, daha böyük bir möhtəşəmlik, daha böyük bir mütəşəkillik görürük. Və o coşqu "məmə deyəndən pəpə yeyənə" qədər 10 milyonluq Azərbaycan xalqında var. Bu gün 10 milyonluq xalq ayaq üstədi, müqəddəs savaşda Azərbaycan Ordusunun və Azərbaycan Prezidentinin yanındadı! Və bu möhtəşəmliyin və coşqunun qarşısını heç bir qüvvə almağı bacarmaz. Ən azından ona görə ki, haqq-ədalət və beynəlxalq hüquq bizimlədi... Ən azından ona görə ki, bu xalq, bu millət 30 il səbr edib dözüb... Ən azından ona görə ki, bu vulkan, bu güc yenidən püskürməyə başlayıb... Və Azərbaycan xalqı artıq ayağa durub Böyük Qarabağa doğru irəliləyir... Böyük Qarabağa doğru! Addımların uğurlu olsun, Azərbaycan! Böyük Məmməd Araz sanki bu günü görüb deyir:

*Nə yatmısan, qoca vulkan, səninləyəm!*
*Ayağa dur, Azərbaycan, səninləyəm!*

... Böyük qələbəyə səsləyir bizi Böyük Məmməd Araz! Böyük Qələbəyə, Böyük Azərbaycan çox yaxındı, lap çox!!!

**Faiq QİSMƏTOĞLU**
**"Ədalət"in xüsusi müxbiri**
**Bakı-Horadiz-Bəhmənli-Zobucuq-Bakı**

***MEHMAN CAVADOĞLU***

# XUDAFƏRİN - MİLLİ BİRLİK SİMVOLU

**(əvvəli 1-ci səhifədə)**

**Mən də bu yandan qonaq getmək təklifini qəbul eləmək üçün "mütləq Xudafərin körpüsünü görməliyəm"- deyə çox ağır şərt qoymuşdum. Tehran boyun oldu, dedi bir qohumum var bu məsələni həll edər. Həmin qohum məni həm Mahmudlu stansiyasında hərbçilərin əlindən almalı, həm də səhəri gün Xudafərinə aparmalıydı. Dəmiryolu stansiyasında qohum görünmədi və əsgərlər məni əks tərəfdən gələn qatara mindirib geriyə, Bakıya qaytarmaq üçün vağzalın komendantına təhvil verdilər. O vaxt bir qohumum və yerlim Cəbrayılın polis (o vaxt milis) rəisiydi. Çox xahiş-minnətdən sonra komendant rəislə əlaqə yaratmağa imkan verdi və onun zəmanətiylə pasport məlumatlarımı götürüb məni buraxdı.**

Sonradan məlum oldu ki, Tehranın vağzalda bizi başsız qoymuş qohumu yalançı-filan deyilmiş, indi unutduğum hansısa səbəbdən qatar ayağına gecikmişdi. Özü də pərt idi. "Eybi yox, dedim, Xudafərinə aparıb, günahını yuyarsan". "Asan məsələdir, narahat olma" - dedi.

Yox, o qoçaq oğlan-zad deyildi, bizi hansısa gizli yollarla, partizansayağı aparmayacaqdı. Açığı, heç biz özümüz də bu cür yollarla geməyə ərdəmi çatan cayıllardan deyildik. Qohum hər işin çəmini bilən zəmanə adamıydı. Səhəri gün bizi öz maşınına oturdub, maneəsiz-filansız bütün postlardan keçirdərək düz Xüdafərinin kənarına gətirdi. Rus əsgərləri maşınını bir dəfə də yoxlamadılar, nömrəyə baxan kimi eləcə əllərinin işarəsiylə "buyur" dedilər. Mənzil başındasa onu komandirin özü gözləyirdi.

Maşının yük yerindəki dolu zənbilin birini birbaşa komandirin xidməti UAZ-na qoydu, ikincisini isə boşaldıb elə körpünün ayağındaca yerdən sərdiyi qəzetlərin üstünə düzdü. Cənublular elə bu cür "qəzet-süfrələrə" görə o vaxtlar bizə "süfrəsi qəzetdən köpəyuşağı" deyirdilər. Süfrənin üstü boşaldıqca, qəzetlərin yarısı islanıb əridiyinə, yarısı da salfet kimi istifadə olunduğuna görə öz funksional əhəmiyyətini itirdikcə bizim vətənpərvərlik hisslərimiz coşub daşır, komandirinsə sifətinin sərt cizgilərinə məsum ifadələr qonurdu. Bir azdan necə cuşə gəldisə hətta dil-boğaza qoymadan söylədiyimiz Araz nisgilli şeirlərə çəpik də çalmağa başladı. Təbii ki, mənasını anlamadan.

Bu deyilənlər bizim istəklərimizdən doğan, qohumla komandirin dostluğu və "işgüzar əlaqələri" sayəsində gerçəkləşmiş bir həyat hekayəsidir, onu Sovet hərbçilərinin məsuliyyətsizliyinə rişxənd motivləri kimi qəbul eləmək lazım deyil. Əksinə, Sovet ordusu lazım olduğundan da çox məsuliyyətli, peşəkar, həm də qəddar bir orduydu.

Onun ucsuz-bucaqsız sərhədləri üçqat tikanlı məftillərlə və yuxarıda da dediyimiz kimi 50-60 kmilometrlik "təhlükəsizlik zonası"yla əhatəyə alınmışdı. Bununla özünü təkcə düşmənçilik etdiyi kapitalist ölkələrindən yox, həm də sözdə dost və qardaş, əməldəsə vassal saydığı sosialist ölkələrindən də təcrid eləmişdi. Sərhədlərinin o biri üzünü də elə özü "qoruyurdu". Xatirələrdən söz düşmüşkən, qoy, birini də deyim. 70-ci illərin sonlarında Lvovda keçirilən gənc jurnalistlərin ümumittifaq seminarında bizi Sovet-Polşa sərhəddinə ekskursiyaya aparmışdılar. Bu qədər möhkəm mühafizə olunan sərhəddin o tayında niyə heç bir sərhədçinin və mühafizə qurğusunun omamasından təəccüblənən Sibirli bir jurnalistin sualına Lvov şəhər partiya komitəsinin bir rəsmisi açıq-aşkar ironiya ilə cavab verərək dedi ki, Polşalılar rusların onların sərhədlərini də göz bəbəyi kimi qoruduqlarından tam arxayındırlar, əlavə niyə xərc çəksinlər ki?!

Həmin tikanlı məftillər uzun illər ərzində ölkəmizin ikinci ən böyük çayı Arazı bizdən ötrü əlçatmaz yerə çevirdi. Sahilboyu kəndlərdə yaşayan insanlar əsrlər boyu baş-başa qaldıqları, gün-güzəranlarının ən yaxın yol yoldaşı olan bu çayın varlığını az qala unutdular, onu öz yaddaşlarından birdəfəlik silib atdılar. Tikanlı məftillər arxasındakı Araz özünün bütün coğrafi və sosial mahiyyətini itirərək siyasi anlam kəsb eləməyə başladı, bölünmüş bir xalqın simvoluna, millətçi düşüncənin məhək daşına çevrildi. Ölkədəki bütün antisovet ovqat onun üstünə kökləndi. Hər addımbaşı şəninə saysız şeirlər, poemalar yazıldı, məhrəm göz yaşları bulanıq suyuna qarışdı, klassik poeziyamızdan yadigar qalmış "hicran" adlı nisgil və nifrin yağışları onun başına yağdırıldı. Araz bizim başqalarıyla müqayisədə olduqca kasıb dissident düşüncəmizin ən üzüyola hədəfindən başqa bir şey olmadı, hətta birbaşa çayın qırağında yaşayan camaatın məişətində belə onun heç bir rolu qalmadı, varlığı hiss olunmadı, xəritələrdəki irili-xırdalı çaylardan heç nəylə fərqlənmədi.

O, öz səfası, romantikası, ən əsasısa maddi resurslarıyla yalnız İmişli camaatının məişətində ilişib qaldı, həm dolanışıq, həm də əyləncə məkanı kimi yalnız onların həyatının, ruhunun bir parçası oldu. Rayonun, xüsusilə onun Arazboyu sakinlərinin çinədanında bu çayla bağlı saysız-hesabsız yaxşı və pis, maraqlı və tükürpədici xatirələr yatır. Çünki burda o, sərhəddən aralanır, yaxasını tikanlı məftillərin cəngindən qurtararaq Şoloxovun məşhur romanındakı Don çayı kimi böyür-başında yaşayan insanlarla qaynayıb qarışır, onların acılı-şirinli günlərinin həm sevinci, həm kədəri, həm də təsəllisi olur.

Azərbaycan müstəqillik qazandıqdan, Araz qırağındakı tikanlı məftillər "metalloma" çevriləndən sonra da biz Araza qovuşa bilmədik, işğalçının biri getməmiş digəri gəldi, yağışdan çıxıb yağmura düşdük. Düz 30 ildir ki, bu yağmurun altındayıq. Vətən torpağının bircə qarışı belə düşmən tapdağı altındadırsa onun azadlığından və müstəqilliyindən danışmaq, sadəcə, əxlaqsızlıqdır, natamamlıq kompleksidir. Milli ordumuzun on gündür başlayan zəfər yürüşünün hər bir Azərbaycan vətəndaşının qəlbində oyatdığı qürur və iftixar hissinin kökündə də elə bu kompleksdən birdəfəlik can qurtarmaq arzusu dayanır.

Müharibə fəlakətdir, dağıntıdır, insan itkisidir. Ona görə də heç bir xalq dinc həyatını ağrı-acılarla, faciə və itkilərlə dəyişmək istəməz və istəmir. Amma kölə kimi yaşamaq daha ağır fəlakətdir, axı. Yağı düşmən torpağında at oynadırsa, üstəlik, hər addımbaşı səni təhqir eləyib əsəblərinlə oynayırsa, daha bunun harası dinc həyat oldu. İnsanın mənliyi ilə oynamaq, onun mənəviyyatını, hisslərini təhqir eləmək, müqəddəs saydığı yerlərə sataşmaq və bunu hər gün təmtəraqla nümayiş etdirib onun gözünə soxmaqdırmı dinc həyat?

Şuşa bu xalqın qürur və iftixar mənbəyidir, ən ağır dağıntılara məruz qaldığı vaxtlarda belə təravəti solmayan bəzəkli gəlinidir. Ona görə də İlham ƏliyevAzərbaycan xalqı onun hisslərini Şuşayla imtahana çəkənləri heç vaxt bağışlamayacaq deyərkən yüz dəfə haqlıydı.

Bu xalqın başqa bir qürur mənbəyi Xudafərin körpüsüdür. Bu gün Araz üzərində çox körpülər var, torpaqlarımız düşməndən təmizlənəndən sonra daha yeniləri inşa ediləcək. Amma heç bir körpü bizə Xudafərini əvəz edə bilməyəcək, onun kimi milli relikviyaya çevrilməyəcək. Araz ayrılıq rəmzidirsə Xudafərin birlik simvoludur. İndi Şuşa kimi o da təkcə işğal altında deyil, həm də təhqir hədəfidir. Maddi tərəfi bir yana qalsın, ordan təyinatından asılı olmayaraq düşmən qapısına daşınan hər yük, yeni yaradılan infrastrukturlar bizə Şuşanın təhqir olunması qədər ağır və sarsıdıcı mənəvi zərbədir.

Yuxarıda Cəbrayılın Mahmudlu kəndinə gənclik səfərini əbəs yerə xatırlamadım. Azərbaycan ordusu artıq Xudafərin yolunun üstündə olan bu kəndi işğaldan azad edib və indi yəqin ki, qohumun bizi apardığı yolla minillərin birlik körpüsünə doğru inamla irəliləyir. Onun azad olunması xəbərini saatbasaat gözləyirik. Təbii dayaqlar üzərində inşa edilmiş nadir arxitektura nümunəsi olan bu körpü(lər) əsrlər boyu Azərbaycan ordularının yürüşlərinə, tacir karvanlarına vəsilə olub və yenə olacaq.

İndi Arazın o tayındakı xalqımız da həmin xalq deyil. İkiyüzillik ayrılıq, fərqli rejimlər və ideologiyalar altında yaşamağın yaratdığı mentalitet fərqləri 30 illik gediş-gəlişdən sonra tamamilə silinmək üzrədir. Erməni sevdalı hakim rejimdən fərqli olaraq bir çox ideologiyaları dişlərinə vurub tullayandan sonra milli ideologiyanın alternativsizliyini qəbul eləmiş cənublu qardaşlar bizimlə birdir və bu birliyi hər fürsətdə əməli işləriylə nümayiş etdirməkdən çəkinmirlər.

**Araz çayının yenidən xalqımızın həyatına, məişətinə daxil olacağı, Xudafərinin təkcə gediş-gəliş yolu yox, həm də bir turizm məkanına çevriləcəyi vaxta sayılı günlər qalıb. Çox keçməz müzəffər Azərbaycan ordusunun Xudafərin, sonra da Şuşa raportu bütün arzularımızı çin edər, gözlərimizi sevinc yaşlarıyla doldurar.**

# Sekuta: Ermənistan təhlükəli oyun oynayır

**ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Robert Sekuta Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc şəhərlərinə hücumunu pisləyib.**

Bu barədə səfir "Anastasiya Lavrina ilə qlobal diskussiya" verilişinin efirində danışıb. O bildirib ki, Gəncə Dağlıq Qarabağın bir hissəsi deyil və işğal olunmuş ərazi sayılmır:

"Bu, eskalasiya və ya münaqişənin böyüməsi cəhdidir. Gəncə təsadüfi seçilməyib. Həmkarlarımla bir neçə boru kəmərinin keçdiyi Gəncə dəhlizinin əhəmiyyəti barədə tez-tez danışırıq. Strateji baxımdan, bir neçə ölkənin enerji təhlükəsizliyi üçün çox vacib bir bölgədir.

Ermənistan üçüncü ölkələri münaqişəyə cəlb etmək istəyir ki, bu da öz növbəsində vəziyyəti dəyişəcək. Bu təhlükəli bir oyundur".



Səfirin sözlərinə görə, digər tərəflərin cəlb edilməsi münaqişəni Avropaya doğru və hətta daha geniş və qlobal şəkildə genişləndirə bilər:

"Qaydalara əsaslanan sistem istədiyimiz barışı əldə etməyimizə həqiqətən kömək edə bilər. ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri birlikdə işləmək üçün bir yol tapmalı və hər iki tərəfi danışıqlar masasına gətirməlidirlər. Və bu dəfə danışıqlar naminə danışıqlar deyil, danışıqlar vasitəsilə həll yolu tapılmalıdır. Eyni şeyi təkrarlamaqdansa, bir çıxış yolu tapmağa çalışmaq lazımdır. ATƏT-in Minsk Qrupu bitərəf qalmamalı, ölkələrin irəliləməsi üçün bir yol tapmasına kömək etməlidir".

**MEHRİBAN**



Can Ataklı

# Sən nə imişsən, ay 7

*Keçən günlərdə bir dostum mesaj yazıb ki, bu 7 rəqəmində ilişib qalmışam. Həyatımızdakı 7 rəqəmlərini sıraya düzmüşdü. Həftənin 7 günü, 7 not, göyün 7 qatı, Türkiyədə 7 bölgə, dünyada 7 qitə var və s. Bu rəqəmlərdəki sirri öyrənmək istəyirdi.*

*Bir çox nümunələrə baxanda insan doğrudan da çaş-baş qalır, amma hamısını bir yerə yığanda ortaya həqiqətən də sirrli bir məqam çıxır.*

*7 rəqəminin bu qədər çox istifadə olunması təsadüfdürmü, yoxsa həqiqətən burada nəsə var?*

*Bununla bağlı bir nəticəyə gəlmək üçün internetdə gəzərkən 33 illik turizmçi Can Bekinin bir yazısına rast gəldim. O yazı da 7 ilə bağlı bir çox məqamlar vardı.*

*İzmirdə yaşayan və turizm sahəsində bir çox mükafatı olan Can Bekin 7 ilə bağlı 65 maddə yazıb.*

*Bekinin yazısının sonunda 7 haqqında yenə 7 faktı qeyd eləyib.*

*7 bötüvlük və mükəmməlliyin (həm fiziki, həm də ruhi) rəqəmidir. Mənasının çoxusunu Tanrının hər şeyi yaratmasına bağlılıqdan alır. Söz insanın icadıdır, lakin rəqəmlər ilahidir.*

*Riyaziyyat hər nə qədər insane əqlinə söykənmiş kimi görünsə də, rəqəmlər insandan öncə də vardı. Misal üçün bütün dünyada şans rəqəmi kimi tanınmış 7 rəqəmi kimi. Bu rəqəmi biraz araşdırdıqda, əslində onun dünyadan kənar bir mənasını olduğunu görmək olmur. Ana rəqəmlər içində heç biri yeddiyə tam bölünə bilmir, nəticə hər zaman sonsuz təkrarlardan ibarət onluqlar kimidir. Yeddinin bölünməməsi və digər rəqəmlərlə hər hansı bir hesaba girə bilməməsi, bakirə halını təmin edən səbəblərdən biridir.*

*1.Musiqidə 7 not var.*
*2. 7 rəng var.*
*3. Dünyada 7 qitə var.*
*4. Göyqurşağı 7 rənglidir.*
*5. Quranın ilk surəsi Fatihə 7 ayədən ibarətdir.*
*6. Dinimiz İslamda 7 mərtəbə (məqam) var.*
*7. Topqapı Sarayının 7 böyük qapısı var.*
*8. 7 baş mələk var.*
*9. Mifologiyada 7 əsas tanrının var olduğu düşünülür.*
*10. Tibetdə 7 Budda var.*
*11. İnsan üzünde 7 dəlik var.*
*12. Müsəlmanlıqda 7 qat cənnətdən bəhs olunur.*
*13. Eshab-ı Kəhf hadisəsi 7 yatan insandan bəhs edir.*
*14. Böyük ayı bürcü 7 ulduzdan ibarətdir.*
*15. Rum rəqəmi sistemində 7 hərf var.*
*16. İstanbul, Roma və Qüdsdə 7 təpə var.*
*17. Antik dünyanın 7 möcüzəsi var.*
*18. Cümə namazının 7 fərzi var.*
*19. Yəhudilərdə müqəddəs şamdan 7 qoldan ibarətdir.*
*20. Türkiyədə 7 coğrafi bölgə var.*
*21. Qızıldərililərə görə fəsillər 7 dənədir.*
*22. Ailədə soy 7 kökə dayanır.*
*23. Bir uğur böcəyində adətən 7 xal olur.*
*24. Məməlilərin boyunlarının çoxunda 7 sümük olur.*
*25. Periodik cədvəldə sətir sayısı yeddidir.26. Digital cihazlarda 7 siqmentli bir ekran istifadə olunur.*
*27. Çılpaq gözlə görünə bilən göy cismlər 7 dənədir.*
*28. Kəfənə 7 arşın bez də deyilir.*
*29. Mövlanənin Məsnəvisi 7 cilddən ibarətdir.*
*30. Mövlanənin 7 öyüdü var.*
*31. Uşaqlar 7 yaşında dərsə gedir.*
*32. İnsanın 7 çakrası var.*
*33. İnsanın üzündə 7 dəlik var.*
*34. Katoliklərdə 7 sakrament əsasdır.*
*35. Qədim yunan uyqarlığında 7 ağıllı adam olub..*
*36. Misirin Günəş Tanrısı Ra 7 ruhludur.*
*37. Çində müqəddəs 7 element var.*
*38. Feng Şuidə əlaqə sayı 7-dir.*
*39. Afrikalıların Kwanza Bayramı 7 simvolludur.*
*40. Eskimoslarda qarın 7 adı var.*
*41. İstirahət günü həftənin yeddinci günüdür.*
*42. Həftənin 7 günü var.*
*43. Yaponlarda rəqəmlərin ən uğurlusu 7-dir.*
*44. Tarot falında 7 zəfər var.*
*45. Harri Potter seriyasında 7 kitab var.*
*46. Ağbəniz Şəhzadənin 7 cırtdanı var.*
*47. Dünyada 7 okean var.*
*48. Boyunda 7 fəqərə sümüyü var.*
*49. Dünya 7 günə yaradılıb.*
*50. İsrail xalqı matəm zamanı 7 gün yas tutur.*
*51. Xristianlıqda 7 möhür açılır, 7 kilsəyə göndərilir və məhkəmə günü 7 boru çalınır.*
*52. İnsanın mənəvi inkişafı 7 mərhələdən və qapıdan keçərək tamamlanır.*
*53. Kəbədə 7 minarə var.*
*54. Körpələrin dişləri təxminən 7 aylığında çıxmağa başlayır və 7 yaşında tökülür.*
*55. Peyğəmbərlərin çoxusu 7 il çilə çəkib.*
*56. Dərnəklərin qanununa görə bir dərnəyi qurmaq üçün 7 üzv lazımdır.*
*57. At nalında 7 dəlik var.*
*58. İslam dini VII yüzillikdə doğulub.*
*59. Buddizmin qurucusu Buddanın doğulan kimi atdığı addım sayı yeddidir.*
*60. Milli Lotoreya biletlərində 7 rəqəm var.*

# O MAVİ GÖZLÜ...

**... Heç yatsaq yuxumuza girməzdi ki, günlərin bir günündə o mavi gözlü, o bal kimi şirin, o Vətənini və torpağını hər şeydən üstün tutan Elçin Tehran oğlu Süleymanov bir gün şəhid olacaq. Və bir gün biz o şəhid tabutunun altına girərək onu Bəhmənlidəki dədə-baba qəbiristanlığına yola salacağıq. Bizim yuxumuza girməyən və ağlımıza gətirmədiyimiz bu günü Elçin özü həmişə gözləyirdi...**

... O gözləyirdi ki, bir gün gələcək böyük savaş başlayacaq və o böyük savaşda işğal altında olan torpaqlarımızın azad olunmasında öz sözünü deyəcək. Torpağa, Vətənə, Füzuliyə o qədər bağlı idi ki, hərbi xidməti başa vurandan sonra özü könüllü olaraq Füzulidəki "N" hərbi hissəsində yenidən xidmət edirdi. Əlbəttə, müddətdən artıq xidmət etmək üçün insanın özündə qeyri-adi bir Vətən sevgisi, Vətən məhəbbəti olmalıdır. Elçin onu da yaxşı bilirdi ki, Füzuli cəbhə bölgəsidir, hər an, hər dəqiqə döyüşə atılacaqdı. Və o hər an, hər dəqiqə o döyüşə atılmağa, o savaşa qoşulmağa hazır idi...

***... İndiyə qədər yadımdan çıxmır. 3 il bundan əvvəl "dördyol"dakı şadlıq sarayında onun toyu oldu. Və o toyda bir qohum olaraq, bir ziyalı olaraq mənə söz verdilər. Mən də sözümü deyib qurtardım və Elçinin başına yığışmış oğlanlara üzümü tutaraq dedim ki, gün o gün olsun ki, siz hamınız savaşa atılasınız və torpaqlarımızı yağılardan azad edəsiniz! Elçinin silahdaşları onu dövrəyə elə almışdılar ki, sanki bugünkü döyüşə və savaşa gedirdilər. O gənclər, o uşaqlar elə hayqırırdılar ki, o hayqırtıda bugünkü qələbənin səsi hiss edilirdi. Və məni ən çox sevindirən o idi ki, Elçinin silahdaşları heç vaxt, heç zaman savaşdan çəkinmirdilər. Və o savaşı, o cəngini hər gün gözləyirdilər...***

... O gün gəldi. Elçin və dostları Füzulinin bir neçə kəndinin işğaldan azad edilməsində mərdliklə döyüşdülər. Elçin tankda atıcı idi və üzərinə düşən vəzifəni də şərəflə yerinə yetirirdi. Ermənilərin bir neçə mövqeyini dağıdıb qayıdandan sonra o, Şəhidlik zirvəsinə yüksəldi. O mavi gözlü, o şir ürəkli, o polad biləkli oğlan torpağımızın azadlığı və bütövlüyü yolunda Şəhid oldu və Allahın dərgahında özünə əbədi bir sevgi tapdı! Elçin Süleymanov tək mənim bibim nəvəsi deyildi. Onu oğlum Emin qədər çox istəyirdim. Elə bibim oğlu Tehrangilə gedəndə də çox nadir halda Elçini görərdim. O qədər şirin, o qədər istiqanlı, o qədər səmimi oğlan idi ki, ürəyini adama çıxarıb vermək istəyirdi.

... Bir dəfə elə oldu ki, qış ayında onlara getmişdim. Ata evinə qayıtmaq istəsəm də bibim oğlu Tehran, həyat yoldaşı Xalidə xanım və Elçin məni qoymadı. Dedilər ki, ora soyuq olar, adam da qalmır, elə Elçinin yatdığı otaqda qalarsan. Qohumlarım bilir ki, mən isti sevən adamam və Elçinin də yatdığı otaq çox isti idi. Axşam rahat yatdım, səhər qalxanda gördüm ki, Elçin hərbi hissəyə gedib. Bibim oğlu Tehrana da deyib ki, Faiq əmi məni bağışlasın, tələsdiyimə görə tez çıxdım, onunla görüşə bilmədim...

***Şəhidliyindən bir gün qabaq bibim oğlu Tehranla danışdım. Çünki axşam Elçini yuxumda görmüşdüm. Tehran da dedi ki, yarım saat bundan qabaq danışmışıq, salamatlıqdı. Bir az sakitləşdim. Bir gündən sonra isə bu ağır xəbəri eşitdik...***

Elçin əvvəllər Tehranın oğlu idi. Uzaqbaşı Bəhmənlinin oğlu idi. Şəhid olandan sonra isə o, Azərbaycanın, bu xalqın, bu millətin oğlu oldu. Bu xalqın, bu millətin övladını da bu xalq, bu millət, bu dövlət yaşadır. Ölkə prezidenti İlham Əliyev şəhid ailələrinə müraciət edərək dedi ki, mən hər bir Şəhidin, hər bir şəhid ailəsinin qarşısında baş əyirəm! Və bu gün Azərbaycan xalqı özü də hər bir şəhid ailəsinin qarşısında baş əyir...



Deyirlər ki, Allah-Təala ancaq sevdiyi adamlara şəhidlik qismət eləyir. Və Allah-Təala sevdiyi, seçdiyi şəhidlərini öz cənnətinə sorğu-sualsız daxil eləyir. Elçin Tehran oğlu Süleymanov da o Cənnətdədir... o məkandadır... o müqəddəs yerdədir...

Son mənzilə yola salanda cənazəsini maşına qoymağa imkan verməyiblər. Bütün kənd, bütün el-oba onu çiynində və əllərinin üstündə Bəhmənli qəbiristanlığına aparıblar. Çiynində və əllərinin üstündə son mənzilə yola salınanlar ancaq Şəhidlər olurlar. O şəhidlər ki, həmişə bizim çiynimizdə və əllərimizdə son mənzilə yollanırlar. Heç bilmirəm bibim oğlu Tehrana necə təsəlli verim... heç bilmirəm bibim oğlu Təbrizə nə deyim... heç bilmirəm bibim oğlu Əhmədə hansı təsəllini verim ki, ürəyi sakitləşsin... heç bilmirəm bibim oğlu Rəhimə nə deyim... heç bilmirəm bibim qızları Qənirəyə, Məleykəyə, Sahiləyə hansı təsəllini verim... heç bilmirəm qohumum olan və məni hamıdan çox istəyən Elçinin anası, sinif yoldaşım Xalidəyə nə deyim... O dərdli günlərdə, o ağır anlarda qabaqlarına çıxıb boyunlarını qucaqlayıb ağlaya bilmədim. Utandığımdam çəkilib durdum boynubükük halda Tehran bibioğlunun qapısında. Boynunu qucaqlayıb ağladığım Tehran oldu... Təbiz oldu... Rəhim oldu... Hələ indiyə qədər heç vaxt belə hönkürüb ağlamamışdım. Elçinin o



balaca qız mələyi, nənəsinin adını daşıyan Xalidəni qucağıma ala bilmədim....

***Bütün bəhmənlilər o qapıda idi... bütün el-oba Tehran bibim oğluna təsəlli verməyə gəlmişdi... bütün qonşu kəndlərin adamları da bu dərdə çiyin verirdilər. Ha istəyirdim ki, özümü toparlayım, ələ alım, bacarmırdım. Bacardığım o idi ki, bibim oğlu Tehranın boynunu qucaqlayırdım, göz yaşlarını silirdim və onu tək buraxmaq istəmirdim. Onsuz da Tehran heç vaxt tək olmayacaq. Bütün el-oba, bütün kənd onun yanındadır...***

Bəxtiyar Vahabzadə yazır ki, "Şəhidlər millətin azadlıq toxumudur. Onlar Yer üzünə səpiliblər və bir-bir də yenidən göyərəcəklər". Yer üzündə, Azərbaycanımızda Elçin kimi şəhidlər yenidən dünyaya gələcəklər... Yenidən silaha sarılıb yağılara dərs verəcəklər.

O şəhidlərin qanı tökülən yerdə torpaq bir daha müqəddəs vətənə çevrilir. Çünki belə bir deyim var "Torpaq suya qarışır, palçıq olur, qana qarışır Vətən olur". Və bir də bizim gənc, istedadlı yazarımız Rövşən Tahirin dəyərli bir fikri yadıma düşür: "Vətən şəhid məzarlarından başlayır"...

**... O mavi gözlü, o 28 yaşlı, o Vətən qeyrətli Elçin Tehran oğlu Süleymanov bu gün Füzulinin, Bəhmənlinin, Azərbaycanın iftixarla fəxr ediləsi bir oğluna, Şəhid övladına çevrilib. Bibim oğlu Tehran, bibim oğlu Təbriz, bibim oğlu Əhməd, bibim oğlu Rəhim, şəhid anası Xalidə, şəhid bibiləri, başınızı dik tutun! Sizin əziziniz, mənim doğma bibim nəvəsi Elçin Vətən uğrunda şəhid olub. Mənim özüm də fəxr edirəm ki, bibim nəvəsi Elçin Şəhiddir! Bu ad hər bir addan yüksəkdir. Başını uca tut, Bəhmənli! Başını uca tut, Füzuli! Başını uca tut, Azərbaycan! Sənin Elçin kimi şəhidlərin var. Və sənin Elçinm kimi torpaqlarını azad edən, yağılardan qurtaran minlərlə əsgərin var. Allah o əsgərləri qorusun, o şəhidlərin ruhunu hifz eləsin! Və biz tezliklə şəhidlərimizin və əsgərlərimizin qanı hesabına Füzuliyə, Şuşaya, Kəlbəcərə, Laçına, Zəngilana, Qubadlıya qələbə bayrağını taxacağıq. Necə ki, Cəbrayıl şəhərinə qələbə bayrağımızı sancdıq!!!**

**Faiq QİSMƏTOĞLU**

# VƏTƏN MƏNƏ OĞUL DESƏ...

## *Anar Eyvazov: Düşmənin Ballıca məntəqəsindəki silah-sursat anbarı heyətlə birlikdə dağıdılıb*



**Azərbaycan Silahlı Qüvvələri düşmənə qarşı əks-həmlə hücumlarını davam etdirir.**

Adalet.az-ın məlumatına görə, bunu mətbuat konfransında Müdafiə Nazirliyinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib.

Onun sözlərinə görə, düşmənin müxtəlif istiqamətlərdə zireh 63 taborunun 3 tankı, 4 qrad yaylım sistemi və canlı qüvvəsi məhv edilib.

Həmçinin, düşmənin Ballıca məntəqəsindəki silah-sursat anbarı heyətlə birlikdə dağıdılıb.

Cəbrayıl rayonu ərazisindəki silah sursat anbarı isə qənimət kimi götürüb.

## *Ermənistan tərəfdən vuruşan daha iki muzdlu-terrorçu məhv edildi*

**Azərbaycan Ordusunun sülhə məcburetmə və antiterror əməliyyatları davam edir.**

Adalet.az-ın sosial şəbəkələrə istinadən məlumatına görə, Ermənistan silahlı qüvvələrinin tərkibində Azərbaycana qarşı hərbi təcavüzdə xarici muzdlu-terrorçuların iştirakını sübut edən növbəti faktlar müəyyənləşib. Daha iki məhv edilən əcnəbi muzdlu-terrorçu görüntüləri yayılıb.

## *Azərbaycan Ordusunun əks-hücumu qarşısında tab gətirə bilməyən ermənilər...*

**Azərbaycan Silahlı Qüvvələrinin əks-hücumu qarşısında tab gətirə bilməyən düşmən əsgərləri döyüş mövqelərini tərk edərək qaçıb.**

Adalet.az-ın məlumatına görə bunu mətbuat konfransında Müdafiə Nazirliyinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib. Onun sözlərinə görə, bu gün düşmən hərbçiləri bir neçə məntəqəni tərk edib: "Əks hücum əməliyyatları davam edir. Düşmən depressiya vəziyyətindədir".

## *Müdafiə Nazirliyi: Tibbi təminat və təchizat, qan komponentləri ilə bağlı heç bir problem yoxdur*

**Tibbi təminat və təchizat, təminat və qan komponentləri ilə bağlı heç bir problem yoxdur.**

Adalet.az-ın məlumatına görə, bunu mətbuat konfransında Müdafiə Nazirliyinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib.

Onun sözlərinə görə bu barədə sosial şəbəkələrdə yayılan məlumatlar məqsədli və əsassızdır: "Cəbhə bölgəsində tibbi təminat və təchizat Müdafiə Nazirliyinin mərkəzi hospitalları tərəfindən təmin edilir. Heç nəyə ehtiyac yoxdur. Azərbaycan vətəndaşlarından xahiş olunur ki, yayılan təxribat xarakterli məlumatlara inanmasınlar".

## *Anar Eyvazov: Ermənistan KİV-i təşvişdə olan erməni xalqını yalan məlumatlarla aldadır*

**Ermənistan KİV-i təşvişdə olan erməni xalqını yalan məlumatlarla aldadır. Bununla hərbi uğursuzluqlarını örtbasdır etmək istəyir.**

Adalet.az-ın məlumatına görə, bunu mətbuat konfransında Müdafiə Nazirliyinin mətbuat katibi, polkovnik-leytenant Anar Eyvazov deyib. O bildirib ki, düşmən ordusu işğal altındakı ərazilərə nəzarəti itirib: "Bu uğursuzluğu həzm edə bilməyən düşmən müxtəlif təxrabatlara əl atır. Həmçinin onlar Ermənistan əhalisini də aldadır, onları fəlakətə aparır: "Azərbaycan tərəfi bütün beynəlxalq hüquq normalarına riayət edərək yalnız hərbi obyektləri hədəf alır, mülki şəxslərə atəş açmır. Azərbaycan tərəfi humanitar dəhlizlərin açılmasına razı olduğunu bəyan edib. Bununla bağlı Ermənistan əhalisinə də müraciətlər edilib. Hətta Azərbaycan təslim olmaq istəyən hərbçilərin də ərazidən təhlükəsiz çıxmasına şərait yaradacaq".

## *Ermənistan Bakı-Tbilisi-Ceyhan boru kəmərinə kaset tipli raket atıb*

**Ermənistan Bakı-Tbilisi-Ceyhan boru kəmərinə kaset tipli raket atıb.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün "Twitter" hesabındakı paylaşımında bildirib.

H.Hacıyev bildirib: "Ermənistan Bakı-Tbilisi-Ceyhan boru kəmərinə kaset tipli raket atıb. Raketlər Yevlax rayonu ərazisində BTC boru kəmərindən 10 metr aralı düşüb. 300-dən çox kaset tipli bombaların qəlpələri ətrafa yayılıb. Boru kəmərinə heç bir ziyan dəyməyib. ANAMA hadisə yerində işləyir. Ermənistan enerji infrastrukturuna çarəsiz hücum cəhdləri edir".

Azərbaycan Prezidentinin köməkçisi qeyd edib ki, iki halda Goranboy rayonu ətrafında kəndlərə yaxın ərazilərdə Ermənistan tərəfindən kaset tipli raketlərin atılması qeydə alınıb: "Ermənistan Azərbaycanın yaşayış sahələrinə qarşı kaset tipli raketlərdən fəal şəkildə istifadə edir. Faktlar yerində qeydə alınıb, ANAMA işləyir".

## *Cəbrayıl istiqamətində ordumuz tam üstünlüyə malikdir*

**Ermənistan Müdafiə Nazirliyi növbəti dəfə Cəbrayıl istiqamətində guya bölmələrimizin itkilərə məruz qaldığı barədə dezinformasiya xarakterli məlumat yayıb.**

Müdafiə Nazirliyindən bildirilib ki, Cəbrayıl istiqamətində ordumuz tam üstünlüyə malikdir:

"Rəsmi olaraq bildiririk ki, Ermənistan tərəfinin yaydığı məlumatlar əsassız və yalandır. Cəbrayıl istiqamətində ordumuz əks-hücum əməliyyatlarını uğurla davam etdirir və düşmən üzərində üstünlüyə malikdir".

# CƏBHƏ GÜNDƏLİYİ

**Bu dəqiqəyə qədər**

**Dünən gecə əvvəlki günlərə nisbətən sakit keçib. Səhər saatlarından başlayaraq düşmən artilleriyası yaşayış məntəqələrimizi vurmağa başladı. Beyləqan, Ağdam, Tərtər, Gəncə durmadan vuruldu. Müharibə başlayandan ən çox mərmi bu gün ətrafıma düşüb.**

Yaşayış məntəqələrimiz müharibə başlayandan bəlkə də ən çox bu gün vuruldu. Səhv anlamayın, yaralılarımız, dağılmış evlərimiz var, ancaq bu günki düşmən artilleriyasının işləməyi məni sevindirdi. Əslində bunu gözləyirdim. Düşmənin bu günki artilleriya atışları konkret panik atışlar idi. Nə hədəf var, nə də dəqiqlik, panik halda hara gəldi atırdılar. Bu açıq aşkar göstərir ki, müqavimət qırılıb, ciddi panika var. Təxminən saat 16:00-dan sonra yaşayış məntəqələrimizə atəş açılmadı.

Məsələ ondadır ki, bizim artilleriyamız da susmayıb. Artilleriyamız daha dərinləri vurub. Bu gün hiss olunurdu ki, düşmən tərəfi Ağdamı hədəf alaraq, ordumuzu Ağdam istiqamətindən tələyə salacaq. Məsələ ondadır ki, mən bilirəmsə Ağdam tələdirsə, zabitlərimiz bunu çoxdan bilir.

Cəbrayılın işğaldan azad olduğunu dostum zəng edib dedi, sonra açıqlandı. Füzuli də yüklənir...



Ağdərənin üstündə düşmənin cəmləşmə məntəqəsi var, oranı vurmuşuq. Yaxınlarda gözəl xəbərlərin sayı çox olacaq.

***

**Dünəndən bu dəqiqəyə**

**Döyüşlər tamamilə fərqli məcrada davam edir. Düşmən tərəfi açıq-aşkar panikadadır, artilleriya zərbələrində nə məntiq var, nə əsas. Nə artilleriyamızı hədəf alırlar, nə də hərbi obyektləri. Konkret hara gəldi, heç bir koordinat olmadan raket atırlar.**

Azərbaycan ordusuna gəldikdə isə, artilleriyamız dərinliklərdə işləyir. Sərsəngin üstü, Ağdamın sağ yüksəklikləri durmadan vurulur. Bəzi dostlar soruşur ki, Ağdamdan niyə irəliləyə bilmirik? Xəritəyə baxın. Ağdam 3 tərəfdən dağlarla əhatə olunub, bu o deməkdir ki, indi Ağdam istiqamətindən hücum etmək intihar olar. Yüksəkliklər alındıqdan sonra Ağdama hücum etməyə də gərək qalmayacaq. Təkrar edirəm, sağ cinahdakı yüksəkliklər vurulur.

Ağdərədə son tamamlanma işləri gedir.

Yaşayış məntəqələri əvvəl vurulanda insanlarda narahatçılıq olurdu. Bu gün vurulan bir neçə yerdə oldum. Ev sahibi deyir, heç dövlət də tikməsin, qələbə olsun, özümüz tikib, təmir edəcəyik.

Yeri gəlmişkən hərbçilərimizlə, əsgərlərlə görüşə bilmişəm. Çoxlu salamları var. Gördüyüm odur ki, motivasiya üst səviyyədədir.

***

**Gecədən bu dəqiqəyə**

**Gecədən hazırkı dəqiqəyə qədər döyüşlər dayanmayıb. Düşmən artilleriyası ancaq yaşayış məntəqələrini hədəf alıb. Azərbaycan artilleriyası isə Qarakənd istiqamətini, Ağdərənin üst hissəsini, Sərsəngin üst hissəsini vurub.**

Səhər saatlarından Ağdamda olmuşam, hazırda da Tərtərdəyəm. Döyüşlər davam edir. Ağdam və Tərtərlə kifayətlənməyəcəm. Daha geniş axşam yazacam.

***

**Bu dəqiqəyə qədər**

**Bu gün döyüşlərin dayanması ilə bağlı çoxlu sayda narahatedici zənglər almışam. Cəbhənin Ağdam, Tərtər, Naftalan, Goranboy istiqamətində olmuşam. Hər istiqamətdə də jurnalistin gedə biləcəyi ən son nöqtələrdə işləmişəm. Nəinki səhər saatlarında, hazırda da artilleriya atəşləri dayanmayıb. Hətta gecələyəcəyimiz yerə mərmi altında gəlmişik. Cəbhənin Tərtər və Ağdam istiqamətində olanlar nə yazdığımı yaxşı bilir. Hazırda bunları top atəşləri sədası altında yazıram. Döyüşlər başlayandan Ağdam istiqamətində ilk dəfədir pulemyot atəşləri eşidirəm.**

Döyüşlərin artıq çox öndə getdiyini əminliklə deyə bilərəm. Olduğum ərazinin sağ cinahında beton sədləri dağıdılıb. Qurmaq istədikləri ikinci müdafiə xəttləri də həmçinin. Artıq Sərsəng vurulmur. Xocavənd durmadan vurulur, bundan əlavə Ağdamın cinahlarındakı düşmən mövqeləri artilleriyamız tərəfindən atəşə tutulur. Hazırda döyüşlər davam edir.

**Səxavət Məmməd**



*ASİM YADİGAR*

## YAŞA, VAR OL, YÜZ YAŞA, ALİ BAŞ KOMANDANIM!

**Yerə, göyə sığışmır
Bu gün sevincim mənim,
Papağın qoyub qaçır
Qarabağdan düşmənim,
Qədəmimə sevinir
Dağım, düzüm, çəmənim,
Üzür sevinc gölündə
Anam Azərbaycanım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!**

**Otuz il qan ağlayan
Gözümüz gülür bu gün,
Sızıldayan şeirimiz,
Sözümüz gülür bu gün,
Çəkilir qəm buludu-
Üzümüz gülür bu gün.
Alındı Cəbrayılım-
Gülür dağım, aranım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!**

**Qoymarıq yad köpəklər
Hürələr Qarabağda,
Yallı gedə, oynaya
O gül-çiçəkli dağda,
Otuz il ürəyimiz
Sızıldadı bu yağda.
Yolumuzu gözləyir
Laçınım, Zəngilanım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!**

**Qürurumla oynadı
Dığalar Qarabağda,
Yeyib, içib yatdılar**

**O yaylaqda, bu dağda,
Bu ağrıya, bu dərdə
Dözməyirdi torpaq da,
Yanıb-alovlanırdı,
Tüstülənirdi canım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!**

**Mübarizlər nəsliyik-
Qeyrət qanımızdadır,
Düşmənə amansızıq-
Nifrət canımızdadır,
Polad, Mübariz kimi
Ərlər yanımızdadır,
Türk oğlu türkük, yoxdur,
Yox, qorxum, həyəcanım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!**

**Hər qarış torpaqğımda
Neçə şəhid qanı var,
Torpaq şəhid qanıyla
Yoğrulsa, torpaq olar!
Qarabağçün canından
Keçər min-min oğullar,
"Uf" demərəm, torpağa
Axsa şəhidtək qanım,
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!**

**Qələbə təşnəsiyik-
Qələbə gözləyirik!
Bütün türk dünyasını
Bayrama səsləyirik!
Gəlirik, Qarabağım,
Gözlə bizi deyirik.
Qoşa dursun Şuşamda
İlhamım, Ərdoğanım!
Yaşa, var ol, yüz yaşa,
Ali Baş Komandanım!**

## *Berlində BƏƏ və İsrail arasında kritik görüş*



**İsrail Xarici İşlər naziri Qabi Aşkenazi BƏƏ-dən olan həmkarı Abdullah bin Zayedlə Berlində görüşüb.**

Hər iki ölkə rəsmisi Almaniya Xarici İşlər naziri Hayko Maasın vasitəçiliyi ilə bir araya gəlib. Görüşdə İsrail XİN rəhbəri BƏƏ ilə münasibətlərin normallaşması barədə imzalanan sazişin əhəmiyyətindən danışıb. O bildirib ki, anlaşma bölgədə sabitliyi dəstəkləyəcək və bəlkə də gələcəkdə başqa razılaşmaların imzalanmasına şərait yaradacaq.

Q.Aşkenazi iki dövlətli həll variantı ilə bağlı isə danışmaq istəməyib. Zayed də öz növbəsində sülhün tərəfdarı olduqlarını və birgə çalışmaq istədiklərini açıqlayıb: "Bu anlaşma ilə Yaxın Şərq bundan sonra yeni dövrə şahidlik edəcək".

**MEHRİBAN**

Eminquey



# Allahverdi Bağırovun ruhu Xankəndində doğulacaq!

***Qəzetimizin 1992-ci il 28 fevral tarixli arxivindən tapdığım Milli Qəhrəman Allahverdi Bağırovun yalnız və yalnız bizim qəzetə verdiyi müsahibəni kiril qrafikasından latın qrafikasına köçürməyi özümə borc bildim. Müsahibəni rəhmətlik Surxay Əlibəyli alıb. Allahverdi Bağırovun həmin müsahibəsini sizə təqdim etməklə fikrim heç də I Qarabağ müharibəsini günümüzün Böyük Vətən Müharibəsilə, ordumuzla, xalqımızla müqayisə etmək deyil. Sadəcə, Allahverdi Bağırovun yarım qalan arzularının bu gün çin olacağına içdən inandığım üçündür.***

***"Ağdam Azərbaycanın Stalinqradıdır. Bir neçə nömrə əvvəl biz bu sözü elə-belə yazmamışdıq. Müharibə dövründə alman faşistlərinin burnu Stalinqradda ovulduğu kimi və almanların zəfər yürüşünə Stalinqradda son qoyulduğu kimi, erməni faşistlərinin də zəfər yürüşlərinə son qoyulub. Bu danılmaz həqiqətdir ki, əgər ermənilər Ağdam cəbhəsini yara bilərlərsə, bütün Azərbaycanın erməni taunundan xilas olmağı çox çətindir. Bu gün həmin cəbhədə vuruşan oğullardan biri də Ağdam Xalq Cəbhəsinin liderlərindən biri və ağsaqqalı Allahverdi Bağırovdur. Allahverdi hadisələr başlayandan canı ilə, qanı ilə mübarizənin ön sıralarında gedir".***

**- Allahverdi bəy, şəxsən mənim ən çox sevmədiyim bir məsələ var, o da intizamsızlıq. Jurnalist aşıq kimi gördüyünü çağırar. Döyüşçülər saqqallıdırlar, şəhərdə silahla gəzirlər, hətta bəzən əmrə də tabe olmurlar.**

- Bu bizim döyüşçülərə aid deyil. Siz məni iyirmi ildən çoxdur tanıyırsınız. Məni həmişə bir ağsaqqal kimi seviblər və sayıblar. Və mən özüm də çox gözəl bilirəm ki, hərbin birinci qanunu intizamdır. Bizim özünümüdafiə qüvvələrinin əsgərləri bütün intizama tabedirlər. Amma onu da gizlətmirəm ki, ermənilərdə olan intizam, plan və strategiya bizdə, bizdə deyəndə, yəni bütün Azərbaycan özünümüdafiə qüvvələrində yoxdur.

**- Siz demək olar ki, hər gün döyüş əməliyyatlarında iştirak edirsiniz. Bunun uğurlusu da olur, uğursuzu da. Naxçıvanik uğrunda döyüşdə də müəyyən itkiniz olub.**

- Bəli, həmin döyüşdə 8 nəfər itirmişik. Amma bu bizim günahımızdan deyil. Erməninin güclü silahına və texnikasına qarşı bizim xalq cəbhəsinin uşaqları avtomatla vuruşurdular. Mən sizə deyirəm, avtomat bugünkü döyüşdə quşatan kimidir. Həmin vaxt biz mühasirəyə düşdük. Nə qədər kömək çağırsaq da, səsimizə səs verən olmadı. Amma bizim əvvəlki danışığımızla lazımi anda bizə kömək gəlməliydi. Sözün düzü, xalq cəbhəsinin döyüşçülərinə bir qədər ögey gözlə baxırlar. Bu çox pisdir. Biz bu gün dəhşətli bir düşmənlə vuruşuruq. Burada ögey-doğmalıq olmamalıdır. Həmin gün biz 8 nəfər itirsək də, döyüş tapşırığını yerinə yetirdik. Naxçıvanikdən düşmənin digər tərəfinə kömək keçə bilmədi. Amma onu da deyim ki, Vətən bizə doğma baxandan sonra kim bizə ögey baxırsa baxsın, biz son damla qanımıza kimi döyüşəcəyik. Bir ağdamlı kimi deyirəm, qardaşım Eldarın goruna and içirəm, Azərbaycanın bayrağını, bax, bu əllərimlə Xankəndinin ortasına sancacam.

**- Bu günlərdə ermənilərin girov apardığı iki körpə uşağı dəyişmisiniz. Ümumiyyətlə, əsirlərin dəyişməsində xalq cəbhəsinin xüsusi əməyi var.**

- Arvad-uşağı girov tutmaq kişilik deyil. Biz bunu dəfələrlə hava əlaqəsi vasitəsilə ermənilərə də demişik. Və hələ ermənilər bircə fakt da göstərə bilməz ki,azərbaycanlılar arvad-uşağı girov tutub. Bunu yazaq hər kəsin öz kişiliynə, öz qeyrətinə. Bu düzdür ki, əsirlərin dəyişilməsi prosesi adətən xalq cəbhəsinin üzərinə düşür. Amma digər təşkilatların, xüsusən hüquq mühafizə orqanlarının zəhmətini də danmaq günahdır. Mən bu işdə respublika Prokurorluğunun, eləcə də Ağdam Rayon Prokurorluğunun fəaliyyətini qeyd etmək istərdim.

**- Soruşmaq pis çıxmasın, bəs sizi kim maliyyələşdirir. Yeməyinizi, içməyinizi, geyiminizi kim verir?**

- Əvvəla , Azərbaycanın bütün rayonları sağ olsunlar. İndicə elə siz şahidi oldunuz ki, Qobustan rayonunun camaatı, İsmayıllı rayonunun camaatı bizə xeyli lazımi vəsait gətiriblər.

Amma mən Rəşid Məmmədovun, Nadir və Ağa İsmayılov qardaşlarının mərdliyini ayrıca qeyd eləmək istərdim. Dörd ildir bu adamlar olub-qalanlarını son manatlarını ermənilərlə mübarizəyə həsr ediblər. Bizim döyüşçülərin bütün yeməyi, içməyi, geyimi, eləcə də başqa məsələlər onların hesabınadır. Özü də təkcə bizim yox, Ağdamdakı digər özünümüdafiə qüvvələrinin də ərzaqla təminatı bu adamların şəxsi büdcəsi hesabınadır. Bunu onların özlərindən də soruşa bilərsiniz.

**- Allahverdi bəy, sizin fikrinizcə, bu müharibə nə vaxta qədər uzanacaq?**

- Əgər ortada ögey-doğmalıq olarsa, əgər yenə də respublika rəhbərliyi qətiyyətsizlik göstərərsə və bir də, özünümüdafiə qüvvələri ayrı-ayrılıqda düşmənə, özü də bir nöqtədən idarə olunan düşmənə qarşı mübarizə apararsa, müharibə uzun çəkəcək. Yox, əgər hamı bir yumruq kimi birləşib vahid və eyni zamanda



ağıllı komandanlığa tabe olarsa və birgə mübarizə apararsa, biz tezliklə qalib gələ bilərik. Lap mən qələbə gününü də deyərəm. Özü də mən o qələbə gününə inanıram. Amma bunu kiçik bir sirr sayıb demirəm.

**- Qəzetimiz vasitəsilə nə demək istərdiniz?**

- Dediyimi dedim. Axırıncı sözüm odur ki, Azərbaycanın bütün qeyrətli oğullarını Qarabağ uğrunda döyüşə səsləyirəm. Haydı, qardaşlar, öləlim Vətən yolunda. Əgər bu gün Vətən yolunda ölməsək və ya ölməyi bacarmasaq, onda gələcək nəsil cəmdəyimizə tüpürəcək. Amma ölsəm də, mən Xankəndində öləcəm.

**Surxay Əlibəyli
28 fevral, 1992-ci il,
"Ədalət" qəzeti**

**Artıq 10-cu gündür ki, polad kimi möhkəm, şanlı Ordumuz Qarabağ uğrunda gecə-gündüz mübarizə aparır.**

**30 ildir millətimizin yaddaşına həkk olunan işğal tarixlərini qazıyıb qələbə tarixlərilə əvəzləyirlər. 30 ildir öz yurdundan didərgin düşmüş insanlarımızın qaçqın və məcburi köçkün statusları artıq qarış-qarış, kənd-kənd ləğv olunur.**

**Günlər öncə tamam başqa bir səbəbdən - koronavirusla mübarizədə qaldırılan "Biz birlikdə güclüyük!" şüarı bugün Qarabağ uğrunda öz missiyasını davam etdirir.**

**Hamının gözü, qulağı cəbhədən gələn xəbərlərdə, Ali Baş Komandan İlham Əliyevin rəsmi tvitter səhifəsindədir.**

**Hamı gözləyir ki, nə vaxt növbəti azad olunan rayonumuzun, şəhərimizin, kəndimizin müjdəsi veriləcək.**

**Daha şəhid xəbərləri hüznlə, kədərlə yox, sevinclə qarşılanır. Xalq "Hər şey Vətən üçün" amalı uğrunda təkcə övladından deyil, həm də malından, mülkündən də keçib.**

**Birlik və həmrəylik qələbəmizin açarıdır. Ordunun nizam-intizamlı olması, vahid komandanlıqdan idarə olunması, döyüş ruhu, dezinformasiyaların yayılmasının qarşısının alınması, insanları bir an da olsun ruh düşkünlüyünə uğramağa imkan verilməməsi bizə Qarabağı bəxş edəcək.**

**Çox, çox inanıram ki, işğaldan azad olunan gün Allahverdi Bağırovun ruhu Xankəndində doğulacaq!**

**Xankəndinin ortasına sancılan bayraq təkcə ordumuzun mübariz əsgərlərinin əliylə deyil, həm də bunun arzusunda olan Allahverdi Bağırovun və başqa qəhrəmanlarımızın əliylə sancılacaq!**

**Qələbə bizimlədir!**

**Qarabağ Azərbaycandır!**

# "Raket atılması təcavüz cinayətidir"

***Beynəlxalq hüquq konkret davranış qaydasını müəyyən edir və onun icra mexanizmi ayrı-ayrı dövlətlər tərəfindən icra olunmalıdır. Biz bəzən beynəlxalq təşkilatlara çox böyük ümid bəsləyirik. Beynəlxalq təşkilatlar törəmə qurum olduğu üçün onların özünün müstəqil iradəsi yoxdur. Ona görə də onlardan nəsə gözləmək lazım deyil. "Ədalət" qəzetinin qonağı BDU-nun Beynəlxalq ümumi hüquq kafedrasının professoru Əfsər Sadıqovdur.***

**-Ötən müsahibədə Samirə xanım söyləmişdi ki, BMT qətnamələrinin arxasında dövlətlərin siyasi iradəsi durmalıdır. Belə anlayıram ki, beynəlxalq hüququn işlək vəziyyətə gəlməsi də elə dövlətlərin iradəsindən asılıdır. Düz fikirləşirəm?**

-İlk olaraq onu diqqətə çatdırım ki, bəzən beynəlxalq hüquqi qiymətləndirmə çox şişirdilir. Hətta jurnalistlər arasında, mətbuatda belə bir fikir qeyd olunur ki, beynəlxalq hüquq işləmir və ona görə də belə problemlər yaranır. Məsələ ondadır ki, bəli, beynəlxalq hüququn işləməsi dövlətlərin iradəsindən asılıdır.

Mədəni irsin, mülki əhalinin, mülki obyektlərin qorunması beynəlxalq hüquqi aktlarda təsbit edilib.

Dövlətlər üçün öhdəlik müəyyən olunub ki, müharibə zamanı bu qaydalara riayət olunmalıdır. Beynəlxalq hüquq bundan irəli gedə bilmir. Niyə? Çünki bu normaların tənzimlənməsi üçün, həyata keçirilməsi üçün bütün dövlətlərin iradəsi lazımdır, yaxud da region dövlətlərinin marağı olmalıdır. Beynəlxalq hüquqda müəyyən olunan standartların həyata keçirilməsi ayrı-ayrı dövlətlərin öz üzərinə düşür. Azərbaycan Respublikası bitərəfli qaydada bir sıra tədbirləri həyata keçirib. Nümunə kimi Avropa İnsan Haqları Məhkəməsində Çıraqov qardaşları ilə bağlı 2015-ci ildə çıxarılmış qərarı göstərmək olar. Daha sonra mədəni irs məsələləri ilə də bağlı problemlər istiqamətində BMT-nin ixtisaslaşmış qurumları-YUNESKO və digərləri qarşısında da qiymətləndirilmə məsələləri qaldırıla bilər. Hazırda bu istiqamətdə işlər gedir. Söhbət nədən gedir? Beynəlxalq hüquq konkret davranış qaydasını müəyyən edir və onun icra mexanizmi ayrı-ayrı dövlətlər tərəfindən icra olunmalıdır. Biz bəzən beynəlxalq təşkilatlara çox böyük ümid bəsləyirik. Beynəlxalq təşkilatlar törəmə qurum olduğu üçün onların özünün müstəqil iradəsi yoxdur.

Ona görə də onlardan nəsə gözləmək lazım deyil. Məsələn, BMT Təhlükəsizlik Şurasını qeyd edim. Təhlükəsizlik Şurası BMT Nizamnaməsinə görə sülhə və təhlükəsizliyə cavabdeh orqandır. Amma Təhlükəsizlik Şurasının özü müstəqil bir subyekt deyil. Bu orqan konkret dövlətlərin (ABŞ, Böyük Britaniya, Fransa və digər dövlətlər) iradəsindən asılıdır. O cümlədən də Minsk qrupu.

### *"Minsk qrupunun təzyiqi yolverilməzdir"*

**-Bax elə Minsk qrupunun fəaliyyətindən danışaq...**

-Haşiyədən bir az kənara çıxım. ATƏT vaxtilə SSSR-nin təşəbbüsü ilə 1975-ci ildə təsis olunub. Gəlin baxaq, o, hansı quruma qarşı alternativ idi? Avropa Şurasına. Hansında ki, insan hüquq və azadlıqlarının təməl prinsipləri ifadə olunmuşdu, məhkəmə təsis olunmuşdu və ciddi bir mexanizm yaradılmışdı. SRRİ ona alternativ olaraq özünə yaxın Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsini təsis etdi. Yəni ATƏT-in kökündə köhnə sovet konsepsiyası var. ATƏT-in Minsk qrupu yaradılanda da onun əsas təşəbbüskarlarından biri Rusiya olub. Minsk qrupu təsis olunarkən məqsəd nə idi? Təhlükəsizlik Şurasının qəbul etdiyi aktların icrasını təmin etmək lazım idi. Bir növ prosesi yumşaltmaq üçün məsələni ATƏT-in Minsk qrupuna yönəltdilər, bir növ münaqişəni proses-



də maraqlı olan dövlətlərin manapoliyasına saldılar. Çox qəribədir ki, Fransanın erməni lobbisi ilə əlaqəsi olduğu halda Fransa öz təşəbbüsü ilə həmsədr oldu. Ən pisi isə odur ki, 1995-ci ildə Minsk qrupunun üzvü ola-ola Rusiya ilə Ermənistan arasında hərbi əməkdaşlıq haqda müqavilə imzalandı. Bu görünməmiş bir şeydir. Vasitəçi olan dövlət (Rusiya) üçün bu yolverilməz bir haldır. Ona görə də Minsk qrupunun hansısa bir nəticəyə nail olacağı mümkün deyildi.

Minsk qrupundan çox şey gözləmək lazım deyil, o, ancaq vasitəçidir. Minsk qrupu maraqların uzlaşdırılmasını təmin edir ki, bu qurumun hansısa bir təziqi yol verilməzdir. Beynəlxalq hüquqa görə, təziq etdiyi zaman missiyasını itirmiş sayılır. Ümumi formada deyə bilərlər ki, danışığa gəlin, amma təkid yolverilməzdir.

### *"Hazırda beynəlxalq hüquq Azərbaycanın yanındadır"*

**-Ermənistan dövləti Azərbaycanın ərazisinə ard-arda raketlər atır. Bu barədə nə söyləyə bilərsiniz?**

-Biz yenə də beynəlxalq hüquqa qayıtmalı oluruq. Çünki elə şeylər var ki, o, sırf beynəlxalq hüquqda müəyyən olunub. Cinayət Məcəlləmizin Xüsusi Hissəsi "Təcavüz cinayətinin məsuliyyəti" ilə başlayır. "Təcavüz cinayəti" nədir? Bu anlayış beynəlxalq hüquqda öz əksini tapıb. Beynəlxalq hüquqda təcavüzlə bağlı 1974-cü ildə qəbul edilmiş BMT Baş Məclisinin 8 maddədən ibarət qətnaməsi var. Orada təcavüzə tərif verilir və maddələrdən biri belədir:

"Mütləq deyil ki, dövlət öz ordusu ilə başqasının ərazisinə girsin, hətta ərazisindən başqa dövlətin ərazisinə bomba və raket atması da təcavüz cinayətidir.

Bu halda yenə də beynəlxalq sülhün və təhlükəsizliyin əsas aktı olan BMT Nizamnaməsinin 51-ci maddəsi dövlətlərin həm fərdi qaydada, həm də digər dövlətlərlə əməkdaşlıq edərək təcavüzə məruz qalmasını dəf etmək və əzazil müharibə aparmaq hüququnu tanıyır.

Bu gün Ermənistanın çalışdığı məsələ nədir, problemi yenidən BMT səviyyəsinə qaldırmaqla münaqişəninin məcrasını dəyişmək və öz müdafiəsini təmin etmək istəyir. Biz bu gün BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnaməni yerinə yetiririk və mövqeyimiz haqlıdır. Hazırda beynəlxalq hüquq Azərbaycanın yanındadır. Beynəlxalq hüquq Azərbaycanın qanuni şəkildə özünümüdafiə hüququnu tanıyır və buna görə də Azərbaycan torpaqlarında olan ermənilərə qarşı mübarizə aparmaqla özmüdafiə hüququnu reallaşdırır.

Hazırda Cinayət Məcəlləmiz, həm də qoşulduğumuz beynəlxalq müqavilələrlə mülki əhalinin müdafiəsi ilə bağlı qanunvericilik normaları, aktlarımız var. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 116-cı maddəsində humanitar hüquq normalarının pozulmasına görə məsuliyyət nəzərdə tutulub. Yəni kim ərazimizdə qeyri-qanuni hərəkətlər edərsə, həmin şəxslərə qarşı cinəyət məsuliyyəti nəzərdə tutulub. Eyni zamanda müharibə qayda-qanunlarının pozulmasına görə Cinayət Məcəlləsinin 155-ci maddəsi ilə də cinayət məsuliyyəti nəzərdə tutulub. Daxili qanunvericiliyimizə görə Prokurorluq orqanları bu cinəyətləri həyata keçirmiş şəxsləri təkzib etmək haqqına sahibdir. Bizim hüquq-mühafizə orqanlarının belə bir haqqı var. Belə deyim, həmin şəxslər beynəlxalq cinəyət hüququ ilə təqib edilirlər, ya tutulub Azərbaycan Respublikasına verilməlidirlər, ya da həmin dövlətdə mühakimə olunmalıdırlar. Bu mexanizmlər var. Bu məsələdə bizim hüquq-mühafizə orqanlarımızın və diplomatik fəaliyyəti həyata keçirən XİN-in üzərinə böyük işlər düşür.

Təbii ki, bu proses başlayıb və bildiyimə görə ərazimizə atılan hər bir raket ilə bağlı cinayət işi qaldırılır. Bu şəxslərin gələcəkdə cinayət təqibindən yaxa qurtarması mümkün olmayacaq.

Belə cinayət işi Paşinyan haqqında da qaldırılmalıdır, Ermənistanın Müdafiə Naziri haqqında da qaldırılmalıdır və Respubllikamıza qarşı cinayətlər həyata keçirmiş hər bir erməni şəxsinə qarşı da qaldırılmalıdır.

**Söhbətləşdi:
Rövşən Tahir**

## *AMEA Azad Həmkarlar İttifaqı və İlk Təşkilatları Silahlı Qüvvələrə Yardım Fonduna ianə etmişdir*

**Azərbaycan-Ermənistan sərhəddində sentyabr ayının 27-dən Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması və sərhədboyu ərazilərimizi iriçaplı artilleriya qurğularından atəşə tutması nəticəsində başlanmış olan müharibə nəticəsində mülki vətəndaşlar və hərbiçilər müxtəlif dərəcəli ağır xəsarətlər almış və həlak olmuşlar.**

Belə bir həssas dönəmdə bir çox dövlət qurumları və özəl təşkilatlar kimi AMEA-nın Azad Həmkarlar İttifaqı və ilk təşkilatları da orduya dəstək olmaq məqsədilə Silahlı Qüvvələrə Yardım Fonduna ilkin olaraq 20.000 (iyirmi min) manat ianə etmiş, əlavə olaraq isə 40.500,00 (qırx min beş yüz) manat məbləğində ianə etmişdir və bu proses davam etdiriləcək. İanədə iştirak edən təşkilatların adları aşağıdakılardır:

**1. AMEA Azad Həmkarlar İttifaqının aparat işçilərinin əmək haqqından - 3.000,00 AZN;**

**2. İnformasiya Texnologiyaları İnstitutunun Həmkarlar Komitəsi - 6.000,00 AZN;**

**3. H.Cavidin Ev Muzeyinin Həmkarlar Komitəsi - 1.500,00 AZN;**

**4. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Həmkarlar Komitəsi - 8.000,00 AZN;**

**5. Əlyazmalar İnstitutunun Həmkarlar Təşkilatı - 3.000,00 AZN;**

**6. Radiasiya Problemləri İnstitutunun Həmkarlar Komitəsi - 2.000,00 AZN;**

**7. Riyaziyyat və Mexanika İnstitutunun Həmkarlar Komitəsi - 2.000,00 AZN;**

**8. Neft Kimya Prosesləri İnstitutunun Həmkarlar Komitəsi - 3.000,00 AZN;**

**9. İqtisadiyyat İnstitutunun Həmkarlar Komitəsi - 1.000,00 AZN;**

**10. Torpaqşünaslıq və Aqrokimya İnstitutunun Həmkarlar Komitəsi - 5.000,00 AZN;**

**11. Kataliz və Qeyri-Üzvi Kimya İnstitutunun Həmkarlar Komitəsi - 6.000,00 AZN.**

**Habil Qurbanov
AMEA Azad Həmkarlar İttifaqının
sədri, h.ü.e.d., professor**

## *Böyük Britaniya Ukraynaya 6,5 milyon dollar ayıracaq*



**Böyük Britaniya Ukraynaya 5 milyon funt sterlinq (6,5 milyon dollar) məbləğində humanitar yardım edəcək. Bu barədə Böyük Britaniyanın Xarici İşlər Nazirliyi məlumat yayıb. Bildirilir ki, Böyük Britaniya silahlı qarşıdurma və pandemiyadan zərərçəkən bölgələri dəstəkləmək üçün bu addımı atır. Yardımın ayrılması barədə Ukrayna Prezidenti Vladimir Zelenskinin Londona səfəri zamanı (7-8 oktyabr) elan ediləcək.**

**MEHRİBAN**

# YURD VÜSALI AYRILIĞIN SONUYMUŞ...

**Hər qarış torpağına, dağına-dərəsinə, yalına-yamacına, yoluna-cığırına bələd olduğum aranlı-dağlı Cəbrayıldan başlayaraq Bakı, Gəncə, Mil, Muğan, Şirvan, Naxçıvan, Lənkəran, Qazax, Xaçmaz, Şəki... və Qarabağın timsalında bütövləşən ana Vətənim mənim nəzərimdə elə dünyanın özü boydadır...**

***Yaxşı yadımdadır,***

1988-ci ilin fevral ayından sonra nankor qonşularımızın Qərbi Azərbaycanda yaşayan soydaşlarımızı öz dədə-baba yurdlarından qovub çıxaranda köçkünlüyün ilk nişanələrini yüz minlərlə insanın nəmli baxışlarında görüb hiss etmişdim. Doxsanıncı illərin əvvəllərində Xocalı, Xocavənd, Şuşa, Laçın camaatı bu müsibətlə üzləşməli oldular. Sonrakı vaxtlarda Kəlbəcər, Ağdam, Ağdərə, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonlarının sakinləri də doğma yurdlarından perik düşdülər...

Mənim bir vaxtlar qoynundan pərvazlandığım ağır elli Cəbrayılın rayon mərkəzinin, dağlıq və dağətəyi kəndlərin düşmən əlinə keçdiyi 23 avqust 1993-cü il indinin özündə də ağrı-acılı yaddaşımın silinmiz izləri kimi nalə çəkməkdədir.

Rayonumuzun Arazboyu kəndlərinin işğal edildiyi vaxtı, - 23 oktyabr 1993-cü il tarixini isə aradan 27 il keçməsinə baxmayaraq, sözlə ifadə etməyə çətinlik çəkirəm. Araz çayının qırağında düşmən əlinə keçməmək üçün hər ağacı-kolu sığınacaq hesab edən, ancaq buna rəğmən yağı gülləsinə tuş gələn dinc sakinlərin ah-naləsi hələ də qulqalarımda əks-səda verməkdədir...

***Həmin qanlı-qadalı günün sonunda,***

***- gecə saat ikiyə yaxın Füzuli rayonunun Əhmədallar kəndinin üst tərəfindən iranlı soydaşlarımın matorlu qayığında çayı adlayıb keçənlərdən biri olduğumdan, insanların təşviş hissi təbiidir ki, mənə də yad deyildi.***

***O dəhşət saçan gecədə Arazın sağ tərəfindən boylanıb gecənin zülmətində tüstüsü ərşə qalxan kəndlərimizə baxanda anladım ki, məşəqqətli köçkünlük günlərinin astanasındayam...***

Doğma ata ocağımı, Böyük Mərcanlı dəmiryol stansındakı yük vaqonlarında qalan əmlakımı, 25 illik ədəbi yaradıcılığımın nişanəsi olan arxivimi, əlyazmalarımı, Cəbrayıl boyda dünyamı itirəndən sonra taleyin hökmüylə heç bir dost-tanışımın olmadığı bir şəhərə,-Mingəçevirə gedib çıxdım. Bu şəhərdəki yataqxanaların birində eni-uzunu cəmisi 10 kvadratmetr olan otağa sığınandan sonra, yerli qəzetdə işə düzəldim.

***Uzun illər boyu***

***yurd həsrətim qəddimi əyib-büksə də, qürurumu sındıra bilmədi. 1994-cü ilin yanvar ayından sonra Cəbrayıl rayon İcra Hakimiyyətinin səlahiyyətli nümayəndəsi kimi köçkünlüyün ilk illərində Mingəçevirə pənah gətirən 155 ailənin yükünü də çiyinlərimdə daşımağı özümə borc bildim.***

Ayrı-ayrı yataqxana, uşaq baxçası və sənaye obyektlərində müvəqqəti olaraq məskunlaşan Cəbrayıl köçkünlərinin qarşılaşdıqları problemlərin həllində fəal iştirak etdim.

Məktəbyaşlı köçkün uşaqlarının təhsilə cəlb edilməsi istəyi ilə Cəbrayıl rayon İcra Hakimiyyəti rəhbərliyinin və yerli əlaqədar təşkilatların köməyi ilə Mingəçevirdə 18 saylı Cəbrayıl rayon köçkün məktəbinin açılmasına və sinif otaqları ilə təmin olunmasına nail oldum...

Ən başlıcası isə, illər boyu mənim kimi yurd ağrı-acıları ilə yaşayan köçkünlərə Cəbrayıla,-doğma el-obalarımıza qayıdacağımız günlərin uzaqda olmadığını aşılamağa çalışdım.

Qarabağın bir parçası olan, yuxularımda-xəyallarımda da olsa hər guşəsini gəzib dolaşdığım rayonumuzun həsrətini ürəyimdə daşısam da, doğma el-obama yönəlik övlad sevgimin zülmətdə qərq olmasına yol vermədim.

Köçkünlüyün ilk ilində qələmə aldığım "Bir şair yaşayır Mingəçevirdə" adlı şeirim çeşidli qəzet-jurnallarda dərc olunandan sonra dillər əzbəri oldu.

Bu şeirimin sonuncu bəndində dediyim kimi, məcburən yurd yerimi dəyişsəm də, Cəbrayllın adı dilimdən əskik olmadı:

*... Kürü Araz bilir, Bozdağı Diri,*
*Qalıb Cəbrayılda qibləsi-piri.*
*Sızlaya-sızlaya nə vaxtdan bəri,*
*Bir şair yaşayır Mingəçevirdə.*

Köçkünlüyün ilk illərində həm yurd nisgilimdən, həm doğulub boya-başa çatdığım el-obama məhəbbətimdən, həm də məskunlaşdığım ünvandan soraq verən bu şeirimdən sonra, "Araz çayına məktub", "Cəbrayıl dağlarına dediyim ağı", "Arazım", "Bəhmən Vətən oğluna", "Qarabağ", "İşlər belə getsə", "Çadırda doğulan uşaq", "Oktay Həziyevə məktub", "Cəbrayıllılar", "Xarı bülbülüm", "Şuşada açan çiçək"... adlı şeirlərimlə Qarabağ boyda yurd nisgilimi poetik çalarlarla naxışlayıb ortaya qoydum...

Qarı düşmən işğal olunmuş torpaqlarımızda meydan suladığı illərdə belə, "Vətən ana, torpaq namus, sevgi əmanət" başlıqlı şeirimin aşağıdakı misralarında dediyim kimi Vətən sevgimdən güc alan qəlbimin ümid işığını sönməyə qoymadım:

*Dua etdim, ulu Tanrım dadıma yetdi,*
*Ərən yurdum nər biləkli oğul böyütdü.*
*Yadda saxla, babalardan qalan öyüddü -*
*Vətən ana, torpaq namus, sevgi əmanət.*

*Dədəm Qorqud zəfərdədir şərəf-şan-dedi,*
*Şəhid ruhu yerdə qalmaz nahaq qan-dedi.*
*Xudafərin haray çəkdi, Savalan dedi -*
*Vətən ana, torpaq namus, sevgi əmanət.*

*... Mən üç rəngli bayrağımla keçmişəm oddan,*
*Vətən sözü müqəddəsdir hər cürə addan.*
*Ata millət, ana millət, çıxarma yaddan -*
*Vətən ana, torpaq namus, sevgi əmanət.*

Böyük Türk dünyasının bayraqdarı olan qardaş Türkiyə ilə Azərbaycanın əbədi birliyini sərgiləyən poetik düşüncələrimi, Milli Ordumuzun yenilməzliyini, əbədiyyətin şəhid ucalığında dayanan ərənlərimizin yurd amalını tərənnüm edən şeirlərimlə gələbə müjdəli günləri soraqladım:

***...Yenilməz dar ayaqda***
***Ərənləri, ərləri.***
***Şəhid ucalığından***
***Güc alıb zəfərləri.***
***Cavad xan, Məmməd Əmin,***
***Atatürk, Heydər adlı***
***Qibləgahları canlı.***
***Ulu tarixlərinin***
***Hər sətri, sözü şanlı.***
***Böyük türk dünyasının***
***Cismində dövr edən qan -***
***Türkiyə-Azərbaycan!***
***Düşmənə göz dağıdır***
***Şəhərləri, kəndləri.***
***Bir qala timsallıdır***
***Bərələri-bəndləri.***
***Əzəl gündən hər biri***
***Dosta-dostdur, yada-yad.***



***Keçmişləri şərəfli,***
***Çağdaş günləri abad.***
***Dar ayaqda yan-yana***
***Dayanıbdılar hər an -***
***Türkiyə-Azərbaycan.***

**("Türkiyə-Azərbaycan" adlı şeirimdən)**

***... Şəhidlərin yaralı***
***Ruhu and yerin olsun!***
***Qələbə əzmin hər an***
***Dəryadan dərin olsun!***
***Savaş günü halay vur -***
***Düzlən dəstə-dəstə sən!***
***Xankəndində, Şuşada***
***Üçrəngli bayrağımı***
***Qaldır basin üstə sən!***
***Al yağı əllərindən***
***Neçə kəndi, şəhəri -***
***Azərbaycan əsgəri!***

***Dayan düşmən önündə***
***Yenilməyən dağ kimi!***
***Yaşa ürəyimizdə***
***Yurd kimi, torpaq kimi!***
***Ucalt səsini, ucalt -***
***El sığınsın adına!***
***Son qoyaq hünərinlə***
***Vətənin fəryadına!***
***Dön işıqlı sabaha,***
***Yaramızın üstə yax***
***Sən qələbə soraqlı***
***Xoş müdəli zəfəri -***
***Azərbaycan əsgəri,***
***Azərbaycan əsgəri!***

**("Azərbaycan əsgəri" adlı şeirimdən)**

***Tanrıya gündə yüz dəfə şükranlıq edirəm ki,***

illər boyu yurd həsrətiylə yaşayan yüz minlərlə köçkün soydaşlarım kimi arzusunda olduğum xoş soraqlı günləri mənə də bəxş etdi.

Nə yaxşı ki, 2016-cı ilin aprel döyüşlərindən sonra qəddini dikəldən Cocuq Mərcanlının qədəmləri sayalı oldu!

Ata elim Cəbrayılın bir parçası olan qala timsallı bu kənddən Qarabağa uzanan zəfər yolumuz sentyabr ayının 27-dən sonra şaxələnərək Talış kəndinə, Suqovuşana (Madagiz), Horadiz, Yuxarl Əbdürəhmanlı... kəndlərindən keçdiyi günlərdə bizim Cəbrayıl obalarına da üz tutdu.

Nüzgar və Böyük Mərcanlıda zəfər qazanan Milli Ordumuzun əsgərləri hər qarış torpağına bələd olduğum Quycaq, Mehdili, Çaxırlı, Aşağı Maralyan, Karxulu, Cəfərabad, Mahmudlu, Şükürbəyli, Horovlu, Dəjəl, Məzrə, Şükürbəyli, Şıxalağalı, Sarıcallı... kəndlərini də düşmənin qanlı pəncəsindən xilas etdi.

İyirmi yeddi illik zaman kəsimindən sonra ölkə Prezidenti Ali Baş Komandan İlham Əliyevin qətiyyətli iradəsi, Milli Ordumuzun yenilməzliyi və xalqımızın monolit birliyi sayəsində işğldan azad edilən Xan Çinarlı, Billur Kəhrizli Cəbrayılda üçrəngli bayrağımızın yenidən dalğalanması milli kimliyimizin ən bariz ifadəsinə çevrildi.

***Uşaqlıq illərimin,***

***gəncliyimin şahidi olan Böyük Mərcanlının vüsalına qovuşacağım günü gözlərimin önünə gətirəndə sevincimin həddsiz-hüdudsuz olduğunu bütün varlığımla dərk etdim. Düz on beş il qabaq qələmə aldığım və doğma el-obalarımıza uzalı əllərimin poetik ifadəsinə, yurd həsrətimin dilmancına çevrilən "Cəbrayılda qalan dünyam" adlı bir şeirimin aşağıdakı bəndində dediyim kimi gec-tez doğma yurdumuzun vüsalına qovuşacağımı söyləməklə həm özümə, həm də bu istəklə yaşayan minlərlə həmyerlilərimə təskinlik verməyə çalışmışdım:***

***...Səni ovundurum, qoy hələ sözlə,***
***Karvan geri dönər əzəlki izlə.***
***İsmayıl deyir ki, yolumu gözlə,***
***Təzədən qoynuna dönəcəyəm mən...***

Milyonlarala soydaşımıza, yurd nisgiliylə yaşasalar da ümidlərini öləzimə qoymayan köçkünlərimizə sevinc-fərəh bəxş eləyən qələbə müjdəli anlar ölkə Prezidentinin, Milli Ordumuzun, uca millətimizin yenilməzliyini ortaya qoymaqla, ayrılığın sonsuz olmadığını da ən bariz şəkildə nümayiş etdirdi.

İnşallah, əzəli-əbədi düşmənlərimiz Ali Baş Komandanımızın təbirincə desəm, işğal olunmuş torpaqlarımızdan rədd olub gedəcəkləri vaxta sayılı günlər qalıb!

Tezliklə Qarabağın qeyrət qalası Şuşada, Xankəndində, Laçında, Kəlbəcərdə... də üçrəngli bayrağımızın əzəmətlə dalğalanacağı günlərin sevincini birlikdə yaşayacaq, bir milyondan artıq insanın dilindən eşidəcəyimiz:

"Biz daha köçkün deyilik!" kəlmələrinin işığında başımızı dik tutaraq doğma yurd yerlərimizə qayıdacağıq!

**Eşq olsun "Qarabağ Azərbaycandır!" kəlmələrinin sevincini xalqımıza bəxş edən Ali Baş Komandanımıza, Milli Ordumuza! Ulu Tanrı torpaqlarımızın düşmənlərdən azad edilməsi naminə canlarından keçən şəhidlərimizə qəni-qəni rəhmət eləsin, Amin!..**

**İSMAYIL MƏRCANLI İMANZADƏ,**
**AYB Mingəçevir bölməsinin sədri, Cəbrayıl rayonunun keçmiş məcburi köçkünü**

# Əsgərdən başlanır Vətən duyğusu, Harda əsgər varsa orda Vətən var



*Nəzakət Məmmədli*

***MƏN ZABİT ANASIYAM!***

***Milli Ordumuzun zabiti oğlum Ramilə***

Beşiyini asmışam, gözümtək qorumuşam,
Yuxusuz gecələri gündüzlərə qatmışam.
Şirin-şəkər balama həzin layla çalmışam,
Beşiyimə, laylama, övladıma bağlıyam,
Mən zabit anasıyam!

Şükür, sənin yanında alnım açıqdır, Vətən.
Bir cəsur, bir qəhrəman oğul böyütmüşəm mən.
Bir qarış torpaq üçün canını fəda edən,
Bayrağına, himninə, şərəfinə and içən
Zabit anasıyam mən!

Rahat yuxu yatmıram, çünki düşmən yatmayıb.
Hələ çox "arzusu" var, arzusuna çatmayıb.
Bəxti yatmış dərdləri bir kimsə oyatmayıb.
Düşmənin arzusunu gözlərində öldürən
Zabit anasıyam mən!

Dağlarımın başında buludlarım ağlayır,
Dili batmış o yetim bulaqlarım ağlayır.
İçimdə qəzəb, nifrət çaylar kimi çağlayır,
Məni bu intiqama, bu qisasa səsləyən
Zabit anasıyam mən!

Düşmənə "göz dağı"san, gücümsən, qüvvətimsən.
Ürəyimin təpəri, gərəyim,köməyimsən.
Vətənin "dar günü"ndə səsinə hay verənsən,
Bu torpağa, bu elə, bu Vətənə bağlısan.
Səni Vətənə verdim,
Sən Vətənin oğlusan!

***QARABAĞ***

**Elə bil səngərtək qazılıb sinəm,**
**Qəlbimdə duyğular barıt qoxulu.**
**Uğrunda ölməyə hazıram, Vətən,**
**Hər misram döyüşən bir əsgər yolu.**

**Ruhu qan ağlayır Molla Pənahın,**
**Şuşanın ağrısı qəbrindən keçir.**
**Pozulub dünyanın haqq tərəzisi,**
**Ümid qara daşın səbrindən keçir.**

**Dillərdə üşüyür "Qarabağ" sözü,**
**Böyük Pənah xanın ruhu göynəyir.**
**Qəbrinə söykənib qoca Vidadi,**
**Ağlaya-ağlaya bayatı deyir.**

**Kəsərdən düşübdü qeyrət qılıncı,**
**Sonuncu ümidin solur nəfəsi.**
**"Sənsiz" buz bağlayıb dodaqlarında,**
**Həsrətdən üşüyür Bülbülün səsi.**

**Dərdinə qısılıb çəkir içini**
**Bu yalçın qayalar, mamırlı daşlar.**
**Torpağın, ağacın, otun içindən**
**Həmişə bir həsrət cığırı başlar.**

**Şuşanın, Laçının acı nisgili**
**Millətin köksündə xəncərdi, xəncər.**
**Həsrət dağlarına dirsəklənərək**
**Qərib taleyinə baxır Kəlbəcər.**

**Boylanır yaddaşın binələrindən,**
**Bir ovuc bayatı, bir yarpaq ağı.**
**Vətən ağrısını duymayan ömrü**
**Heç vədə isitməz Vətən torpağı.**

***VƏTƏN***

**Dünyaya açılan qapımsan mənim,**
**Ruhumun, könlümün gözüsən, Vətən.**
**Mayası səndədir müqəddəsliyin,**
**İlahi qüdrətin özüsən, Vətən.**

**Qəlbimin işığı, gözümün nuru,**
**Uludan ulusan, ucadan uca.**
**Salım qollarımı boynuna, Vətən,**
**Səni misra-misra öpüm doyunca.**

**Zirvələr söz açır ucalığından,**
**Dərələr şahiddir dərinliyinə.**
**Sənin bərəkətli, barlı torpağın,**
**Geniş sərhədləri geyib əyninə.**

**Hünər dünyasına güzgüdü sanki.**
**Ömür kitabının hər səhifəsi.**
**Hər bir qarışında duyulur, Vətən.**
**Zamanın addımı, tarixin səsi.**

**Ulu əcdadların daşlaşan ömrü,**
**Boylanır Laçının qayalarından.**
**Hər daşda bir igid nərəsi yatır,**
**Qan damır tarixin yaralarından.**

**Ellərin arzusu qanadlanaraq,**
**Süzəcək səmada bir gün quş təkin.**
**Şərəflə qorunan yurd yerlərində,**
**Ruhu gülümsəyir ulu Babəkin.**

**Taleyindən keçən qərinələrin,**
**Alnını bəzəyir ərən imzası.**
**Sənin qüdrətinə qoşa qanaddır,**
**Xətai qılıncı, Ələsgər sazı.**

**Ana laylasından hənir alıbdı,**
**Ürəkdə alışan qeyrət ocağı.**
**Doğmalıq ətirli hər qarış torpaq,**
**Ana qucağıdır, ana qucağı.**

**Oğul qeyrətini əyninə geyən**
**Canlı səngərlərin mübarək, Vətən.**
**İlahi sevgiylə yoğrulubdusa,**
**Hər duyğu-Vətəndi, hər ürək - Vətən.**

**Dərbənd qalasından Təbrizə qədər,**
**Uzanan bu yurdun səsi içimdə.**
**Mənim Şah babamın, Şah Xətainin,**
**Əbədi harayı, ərzi içimdə.**

**Hər bahar gələndə sızıldayacaq**
**Qırılmış budağın qönçə ağrısı.**
**Bilirəm qəlbində heç uyumadı**
**Zəngəzur həsrəti, Göyçə ağrısı.**

**Ana laylasına hopan məhəbbət**
**Sənin təravətin, ətrindi, Vətən.**
**Millətin ruhunda, elin dilində,**
**Daim əzizlənən xətrindi, Vətən.**

**Ömrünə güzgüdür oğul qeyrəti,**
**Cürət qanad açıb hər qarışında.**
**Vətən əsgərinin məhəbbətindən,**
**Üzündə sevgi var dağın, daşın da.**

**Sənin qeyrətini çəkən oğullar**
**Ulu qüdrətini duyur dərindən.**
**Durub keşiyində igid ərənlər,**
**Qeyrət ətri gəlir səngərlərindən.**

**Çırağa bənzəyir Vətən torpağı,**
**Hər əsgər ürəyi pərvanəsidir.**
**Bu doğma yurdumun qeyrət nəğməsi,**
**Vətən əsgərinin addım səsidir.**

**Əsgər baxışları sevgiylə öpür**
**Vətən torpağını təbərrük kimi.**
**Yurdu bədnəzərdən qorusun deyə**
**Dolanır başına üzərrik kimi.**

**Əsgərin gözündə güzgülənir, bax,**
**Meşə də, dəniz də, dərə də, düz də.**
**Sərib gözlərinin yuxusunu o**
**Körpələr uyuyan beşiklər üstə.**

**Qartal baxışından hənir alıbdır**
**Quşqonmaz qayalar, mamırlı daşlar.**
**Torpağın, ağacın, otun içindən**
**Hər gün bir əsgərin çığırı başlar.**

**Böyük məhəbbətlə səngərdə durub,**
**Qəhrəmanlıq axır damarlarında.**
**Vətən qeyrətini əyninə geyib**
**Yayın bürküsündə, qışın qarında.**

**Onun qətiyyətli addım səsinə**
**Açıb yaxasını hünər yolları,**
**Qəlbində alışan Vətən sevgisi**
**Əridir üstünə ələnən qarı.**

**Vətən əsgərinin kirpiklərindən**
**Gecə ulduz-ulduz asır özünü.**
**Tətikdə dayanan barmağı üstə**
**Alagöz səhərlər açır gözünü.**

**Ömrünün-gününün hər məqamında**
**O, yurdu düşündü, Vətəni andı.**
**Qəlbində şərəflə dalğalanır, bax,**
**Vətən torpağına sədaqət andı.**

**Böyük dastanlara sığışan deyil**
**Vətən əsgərinin Vətən alqışı.**
**Hər daşı, qayanı çiçək sanaraq**
**Kəpənəklər kimi qonur baxışı.**

**Durub keşiyində müqəddəsliyin,**
**Böyük amalıyla müqəddəsdir O.**
**Ulu babaların ruhundan qopan**
**Canlı bir haraydır, ulu səsdir O.**

**Bu səs qanımızın səsidi, qardaş,**
**Haqqın dan yerindən yol gəlir bu səs.**
**Hünər bayrağıtək, qeyrət himnitək,**
**Vətən göylərinə yüksəlir bu səs.**

**Bu səsin işığı, bu səsin nuru,**
**Gün kimi ələnir yurdun başına.**
**Bu səs bir qılıncdı, ovxarlı qılınc,**
**Qurşa, yurd uğrunda, yurd savaşına.**

**Bu səslə durulur Vətən suları,**
**Bu səsdən ər oğlu bir Mən görünür.**
**Bu səs gündoğanım, günbatanımdır,**
**Bu səsdən bir böyük Vətən görünür.**

**Hər əsgər Vətənin bir məğrur səsi,**
**Hər səsin müqəddəs bir sərhəddi var.**
**Vətənin sərhədsiz səsidir, dostum,**
**Vətən qeyrətini çəkən oğullar.**

**Əsgərdən başlanır Vətən duyğusu,**
**Harda əsgər varsa orda Vətən var.**
**Əsgər addımını laylatək duyur,**
**Torpağın altında şəhid yatanlar.**

***SƏNGƏR***

**Haqqın dərgahında ulu mizandı,**
**Haqq ilə nahaqqın arası - səngər.**
**Vətən, yurd uğrunda döyüşənlərin**
**Köksündən aldığı yarası - səngər.**

**Qopuzu bağrına basmış Dədənin,**
**Torpaq ətri verən sözüdü - səngər.**
**Qələbə nəfəsli ümidlərimin**
**Ürəkdə alışan közüdü - səngər.**

**Ana namusudur, bacı isməti,**
**Ərən babaların papağı - səngər.**
**Savaşda gözünü yuman şəhidin,**
**Sonuncu mənzili, otağı - səngər.**

**Söykən bu qarşı dağlara,**
**Burda hər daş, qaya - səngər.**
**Şəhid qanı axan yurdda,**
**Hər pıçıltı, qıyya - səngər.**

**Yoldu dərdin ayazında,**
**Teldi Ələsgər sazında.**
**Ərən ömrün qapısında**
**Bənzər ilə, aya səngər.**

**Həm bacıdı, həm də ana,**
**Qolu boynuna dolana.**
**Vətənə səngər olana,**
**Dönüb haqqı-saya səngər.**

***"AzerGold" QSC Silahlı Qüvvələrə Yardım Fonduna ianə edib***



**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) torpaqlarımızın işğaldan azad olunması uğrunda döyüşlərdə düşməni ağır məğlubiyyətə uğradaraq layiqli zəfər qazanmaqda davam edən ordumuza dəstək olub.**

**Cəmiyyətin əməkdaşları bir aylıq vəzifə maaşı məbləğində vəsaiti könüllü olaraq Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna ianə ediblər.**

**Bununla yanaşı, ötən həftə Cəmiyyət tərəfindən Silahlı Qüvvələrə təlabata uyğun zəruri əşyalardan ibarət bir neçə yük maşını da cəbhənin müxtəlif istiqamətlərinə yola salınıb. Cəmiyyət bu yöndə lazım olan fəaliyyətləri davam etdirəcək.**

**"AzerGold" QSC Vətənin bütövlüyü uğrunda vuruşan əsgərlərimizin bu şanlı döyüşdən qalib ayrılacağına və tezliklə üçrəngli Azərbaycan bayrağının işğal altındakı torpaqlarda dalğalanacağına əminliyini ifadə edir.**

**Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!**

Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

№ 113 (2147) 8 oktyabr 2020-ci il

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu


# Kim desə dünyadan doydum, yalandı...

**Yazımın sərlövhəsindəki bu misranı Aşıq Əhmədin ömrünün son vaxtlarında yazdığı bir şeirindən götürmüşəm. Ustad az qala doxsanacan yaşadı. Ömrü boyu sazın, sözün sehrindən ayrılmadı. Əli qələm tutmayanda sinədən dedi.**

... Bir gün eşitdim ki, yatağa düşüb. Gedib ona baş çəkdim. Hal-əhval tutub, necəsən, ay aşıq, deyə soruşdum. O, özünə məxsus yarıciddi-yarızarafatla: Necə olacam - dedi - üzü payıza gedirəm. Deyəsən payızın soyuğuna bir şey qalmayıb...

Söhbətimizin kədərli ovqatını dəyişmək üçün dil-ağız elədim, ürək-dirək verdim. O isə öz düşüncələrində idi. Başını qatdığı bircə şey vardısa o da əlindəki təsbeh idi, bir də qəlbində yaşatdığı, özü ilə ömür yoldaşı olduğu xatirələr...

***Onun titrək səsi aramızdakı sükutu pozdu. Sanki bir anlıq eyni açıldı. Başını yastıqdan qaldırıb dirsəkləndi. Yaxşı gəlmisən - dedi - daha əlim sözümə baxmır, heç nə yazıb-poza bilmirəm. Qələm-kağız götür, bir-iki vəsiyyətim var, deyim yaz. Yanımda bloknotum vardı. Amma özümlə gətirdiyim diktofonu açdım. Özünü çəmlədi, ürəyindəki misraları dilə gətirdi:***

*Qoca dünya hey boşalıb-dolandı,*
*Dünyaya gəldiyim xeyli zamandı.*
*Şər-pislikdən uzaq olun, amandı,*
*Kim desə dünyadan doydum, yalandı.*

*Bu gözəl dünyadan daim zövq alın,*
*Yaxşılıq qalacaq dünyada, bilin.*
*Yetimə-yesirə siz həyan olun,*
*Gedirəm, a dostlar, salamat qalın.*

*Əhməd deyir: ya rəiyyət ol, ya da şah,*
*Bu dünya heç kimə qalmaz, ey vallah.*
*Dostlar, sizə and verirəm, siz Allah,*
*Bir-birinizdən muğayat olun.*

Sözünə bir anlıq ara verib: Bunu da Mələyə (həyat yoldaşı) deyirəm:

*Əlvida Vətənim, torpağım, daşım,*
*Qohumum, əqrəbam, yarım, yoldaşım.*
*Ay Mələk, ay Mələk, sağ-salamat qal,*
*Ətrimi, güllərdən, çiçəklərdən al.*

### *Zülmətdə işıq*

Əməkdar Mədəniyyət işçisi Aşıq Əhməd Rüstəmov 100 il bundan əvvəl - 1920-ci ildə Kürdəmirin Carlı kəndində anadan olub. Atası Ədil bəy Məşədi Rüstəm oğlu yaşadıqları Kür çayı bölgəsində varlı adamlardan olub. Bu var-dövlət Ədil bəyə ata-babasından miras qalmışdı. Beşqovaq bağı, Əncil bağı, İydəli qoruq, Çərövüş, Böyük Ağ çalanın bir hissəsi Əhmədin atası Ədil bəyin torpaqları olub.

Aşıq Əhməd söhbətinə əlavə edib dedi: Atamın Şıx təpəsində mal-qara üçün qışlağı, Kürün o tayında - Xəlifə gölü ətrafında lobya, küncüt, darı, sılıf əkmək üçün torpaq sahələri vardı. İndi baxın görün belə bir xeyrül-əməl sahibinin son aqibəti necə oldu?! 1924-cü ildə vəzifə başına keçənlər atamı "xalq düşməni" adıyla qollarını bağlayıb at döşündə kənddən Kürdəmirə aparanda elə yarı yoldaca, yolun kənarındakı qamışlıqda güllələyib öldürdülər. Sonra da bütün var-dövlətini yığıb apardılar. Özümüzü də evdən bayıra atdılar. Bizə tək bir camış, bir dənə də inək verdilər, vəssalam... Biz kənddə Mehdiqulu adlı bir kişinin talvarının altında yaşadıq. Yan-yörəsini qamışla-avarla çəpərləyib tapanladıq. Novruz bayramında heç bir şey tapmayan anam pəncərəmizdəki qanovuz pərdəni qoparıb ondan mənim üçün bir köynək tikdirib geyindirdi. Cibimə arpa qovurğası töküb (buğda hər adamda olmurdu) bağdakı çal-çağır məclisinə apardı. Mənə tapşırdı ki, qovurğanı xəlvət ye, heç kəs bilməsin ki, arpa qovurğası yeyirsən.



Tez-tez səsi titrəyən, ah çəkib kövrələn, yalnız əlindəki təsbehə güc verən həmsöhbətim keçdiyi həyat yolunu ardıcıllıqla yada salmağa çalışırdı: 1930-cu ildə - dedi - ibtidai məktəbə qəbul edildim. Dərd bizi ozana, Qazana döndərmişdi. Çəkdiyim məşəqqətlərə, yaşadığım həyatın ağırlığına baxmayaraq şeirə, sənətə böyük maraq göstərirdim. Üçüncü sinifdə ilk şeirimi yazdım:

***Xəzan yeli bağ-bağatı soldurur,***
***Allah birin yıxıb, birin qaldırır...***

15-16 yaşımdan başlayaraq taxtadan bir saz qondarıb, qonum-qonşuda, bayramda, çilə çıxaran qızların məclisində çalıb-oxuyardım. Mənim anam Umhanı da sənətsevər adam idi. Çox möhkəm hafizəsi vardı. Yaxınlıqdakı Ərəbxana kəndindən olan aşıq Zeynalabdin bizim kəndə toy məclisinə gəlib, çalıb-oxuyanda anam onun dediyi sözləri, oxuduğu havaları dərhal əzbərləyərdi. Odur ki, "Seydi və Kərəm" dastanını mən anamdan öyrənmişdim.

Əlimə saz götürüb ilk dəfə elədiyim toy bizim Carlı kəndində Nəsir adlı bir oğlanın toyu olub. Ondan sonra anam məni həm kəndlimiz balabançı, həm də saz çalmağı bacaran Əli dayının yanına apardı. Bir tağar buğdaya, bir camış düyəsinə, üç batman lobyaya qiymət kəsdilər ki, məni öyrətsin. Əli dayı mənə Ordubadi gözəlləməsini, Qobustan pişrolarını, "Kərəmi" ni, Osmanlı havalarını çaldırdı, oxutdu, oynatdı. Beləliklə əsl sənətə qədəm qoymağa başladım... Sevdiyim sənət mənim qaranlıq həyatımda parlayan işıq oldu.

### *Aşıq Əhməd haqqında alim sözü və yaxud aşıq Ələsgərin bağlamasını açan sənətkar*

Bir gün Bakı Dövlət Universitetinə, folklorçu alim professor Qara Namazovun iş yerinə getdim. Məqsədim bu idi ki, bu tanınmış folklor bilicisindən aşıq Əhməd haqqında onun fikirlərini öyrənim. Qara müəllim aşıq Əhmədin adını eşidəndə dedi: Mən onun haqqında çox fəxrnən, ürəknən, cannanbaşnan danışa bilərəm. Qara müəllim sözünə əlavə edib onu da dedi ki, aşıq Əhmədin "İtən sazım" kitabına ön sözü də mən yazmışam. Mən Qara Namazovla söhbətimizi diktofonuma da yazdım. Yazdım ki, bu dəyərli fikirlər tarixə çevrilsin...

Professor Qara Namazovun aşıq Əhməd haqqında dediklərindən: Aşıq Əhməd Rüstəmovun sənətinə, şeir yaradıcılığına başqaları kimi mənim də böyük marağım, rəğbətim olub. O, mükəmməl saz çalırdı, yaxşı dastanlar söyləyirdi, əsl obrazlar yaradırdı. Şeirlərinin sanbalına və dəyərinə görə istedadlı şair kimi tanınırdı. O, 20 dastanın, çox məzmunlu, dəyərli ustadnamələrin müəllifi olub. Onu da xatırladım ki, ustad aşıq Ələsgərin 2 məşhur bağlamasını aşıq Əhmədə qədər heç kim aça bilməmişdi. Aşıq Əhməd isə ulu ustadın dediyim o bağlamalarını aça bildi.

İstər saz çalmaqda, söz qoşmaqda, istərsə də deyişmələrdə aşıq Əhmədin öz sənətkarlıq dəst-xətti olub. Aşıq şeircatının istənilən növündə aşıq Əhməd maraqlı şeirlər yazıb. Onun gəraylıları, qoşmaları, müxəmməsləri, müstəcadları, təcnisləri də var. Əhməd bu şeir formalarından çox məharətlə, yüksək sənətkarlıqla istifadə edib.

O, xalq fəlsəfəsi istiqamətində çox dəyərli ustadnamələr yazmaqla öz hikmətli, ibrətamiz, fəlsəfi fikirlərini geniş oxucu kütləsinə çatdırmağı bacarıb. Yaradıcı aşıq kimi Əhməd böyük hörmət qazanmışdı.

Aşıq Əhməd saz havalarını təkmilləşdirir, həm də özünə məxsus ustalıqla ifa edirdi. O, şair-aşıq idi. Onun şeirləri, qoşmaları fəlsəfi, hikmətli fikirlərlə, ibrətamiz nəsihətlərlə və kəlamlarla zəngin idi:

***Cahandan köçənlər qayıtmır bir də,***
***Min surət çürüyür hər qarış yerdə.***
***Təqvimlər, saatlar, dəqiqələr də***
***Ömrü parçalayıb bölmək üçündü...***

Yeri gəlmişkən deyim ki, heca vəznində yazılmış qoşmaların heç də hamısı saz havalarına uyuşmur. Aşıq Əhmədin qoşmaları, lirik ricətləri isə özünün dünyagörüşündən, həyata, zəmanəyə, yaşadığı mühitə baxışından yarandığına görə idi ki, bunlar saz havalarının ahənginə çox gözəl uyuşurdu.

Odur ki, bu sözlər məclislərdə, hətta sazsız da, avazsız da oxunsa belə maraqla qarşılanır. Bunlar isə ustad aşığın sənət dünyasına verdiyi layiqli töhfələrdir.

Aşığı yaşadan ilk növbədə onun söz sənətidir. Bu mənada aşıq Əhməd xoşbəxt sənətkarlardan olub.

### *Sənət aləminə layiqli töhfələr*

**Aşıq Əhmədin yaradıcılığı musiqi aləmi ilə sıx bağlı idi. Mən bunu deyəndə bir çox aşıq və müğənnilərin, xanəndələrin repertuarını nəzərdə tuturam. Onlar aşıq Əhmədin şeirlərinə, qoşmalarına, hətta qəzəl üslubunda yazılmış nümunələrinə böyük həvəslə müraciət etmişlər. Unudulmaz müğənni-aşıq Rəhilə Həsənovanın (mən onu uşaq yaşlarımda kəndimizin klubunda sinəsində saz çalıb-oxuyan görmüşəm) ifasında aşıq Əhmədin "Gəlsin" rədifli qoşması necə də gözəl səslənirdi.**

**(ardı növbəti sayımızda)**

***Tofiq Abdullayev***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# Sən oldun, xınalı əllərin dostu, Sən oldun, sən oldun, yenə sən oldun!



*Maşallah Məftun*

### *AĞLAMA*

*Ana sevgisiylə səhərini açan, axşamını batıran Nurəngiz Gün yadigarı Jalə Əliyevaya təsəlli üçün...*

**O, buzları əridən alovlu şair idi,**
**O, bir rəvayət idi, o bir əfsanə idi...**
**Fikirləri işıqlı, baxışı da diriydi,**
**Bircəsinin-bircəsi, yeganəsi, ağlama!**

**Ürəyi paramparça, Xocalı yarasının,**
**Təbriz -hicran dağının, göylərin sonasının,**
**Bir Jalə dünyasının, bir Müjgan yanasının,**
**Ləli, cəvahiratı, dürdanəsi, ağlama!**

**Neçə minilliklərdir Ay da bədirlənibdi,**
**Yersiz, duzsuz, məntiqsiz sözlər qiymətlənibdi,**
**Gözyaşını oxumaq bu gün çətinləşibdi,**
**Bir dənənin kül olmuş birdanəsi, ağlama!**

**Narahatlıq vermədin nə doğmaya, nə yada,**
**Narahatlıq vermədin nə tanışa, nə dosta.**
**Nazik kirpiklərini sıxaraq asta-asta,**
**Başına dolandığı pərvanəsi, ağlama!**

**Analı bir dünya var, yaşar öz ürəyində,**
**O dünya sənlə yaşar, coşar söz ürəyində,**
**Aləm bilir çətin ki, sönər köz ürəyində,**
**Şahanə bir zirvənin şahanəsi, ağlama!**

**Sən - son ümiddən doğan eşqin təkcə varısan,**
**Sən Tanrının gözəli, sən Tanrının yarısan,**
**Sən ruhu dilimlənən bir könül baharısan,**
**Namərdlər dünyasının mərdanəsi, ağlama!**

**O sözün özü idi, o - özü sözün idi,**
**Dili bayatı dili, haqq sözü düzün idi,**
**Yurda həsrətlə baxan nisgilli gözün idi,**
**Bircəsinin-bircəsi, nişanəsi, ağlama!**

**Haqdan gələn qismətin dünya gələ, itənməz,**
**İblis mələk donunda arzusuna yetənməz,**
**Bağçalarda, bağlarda qanqal, tikan bitənməz,**
**Güllərin, çiçəklərin rayihəsi, ağlama!**

**Haqqı nahaqqa verən acı dəhşətdi dünya,**
**Kimə dəli bir sevda, kimə sərvətdi dünya,**
**Kimə şirin bir röya, kimə sərvətdi dünya,**
**Xan əminin "Qarabağ şikəstəsi", ağlama!**

**Sözünlə, idrakınla, qürurunla bəllisən,**
**Səni sən edənlərin ön sırada birisən,**
**Sən - ölümü, zülümü görmüş dağlar çənisən,**
**Nurəngizin bəstəsi, növrəstəsi, ağlama!**

**Bir nəslin yadigarı sənsən - ümüd barısan,**
**Kiminsə son ümüdü, atəşisən, nurusan,**
**Axı sən çox güclüsən, bütövlüyü qoru sən,**
**Nəhəng çayların axan şəlaləsi, ağlama!**

**Ey bu həyatı sevib, görə-görə gələn dost,**
**Yurdunun bayramında, sevinən dost, gülən dost,**
**Dirisi ilə diri, ölüsüylə ölən dost,**
**Zamanın dil-dil ötən səməndəri, ağlama!**

**Yurdumuzun sabahı, kimin gözünə oxdu,**
**Hələ ki, şübhələr var, hələ ki, güman çoxdu,**
**Yer-göy qan içindədi, onsuz ağlayan çoxdu,**
**Nurəngizin saf eşqi, əfsanəsi, ağlama!**

**Məftun bu möcüzəni göyün üzünə yazdı,**
**Eşqini, gileyini ayın özünə yazdı,**
**Ulduzların nağılın "ANA" sözünə yazdı,**
**Anasının şəkəri, divanəsi, ağlama!**

**5 oktyabr 2018.**

### *SƏN OLDUN*

*Nurəngiz Günün ölməz xatirəsinə...*

**Sən oldun, günəşin, güllərin dostu,**
**Sən oldun, ayların, illərin dostu,**
**Sən oldun, xınalı əllərin dostu,**
**Sən oldun, sən oldun, yenə sən oldun!**

**Ayrı bir aləmdən gələn sən oldun,**
**Kövrələn biz olduq, gülən sən oldun,**
**Bizi bizdən yaxşı bilən sən oldun,**
**Sən oldun, sən oldun, yenə sən oldun!**

**Tanrı göylərində mələk oldun sən,**
**Sevgi qanadında dilək oldun sən,**
**Ürəklə yaşadən, ürək oldun sən,**
**Sən oldun, sən oldun, yenə sən oldun!**

**Bircə sözümüzdən bizləri duyan,**
**Nə vaxtdır yatmısan, bir diksin, oyan!**
**Jaləni, Müjganı, kimsəsiz qoyan,**
**Sən oldun, sən oldun, yenə sən oldun!**

**2014**

### *BIR TÜRKÜ DE...*

*Nurəngiz Günə*

**Ehey yol gedənim**
**Hara gedirsən?..**
**``Çiynində günəş tayası``,**
**Könlündə tanri sevgisi...**
**Bir türkü de...**
**Bir türkü de...**

**Bizi bir yerə yiğ,**
**Lampa işıqıı toyumuz gəlir,**
**Ellər elindən boyumuz gəlir,**
**Bəylər -bəyindən hoyumuz gəlir,**
**Bir türkü de...**
**Bir türkü de...**

**Susuz səhram sulanacaq,**
**Dağim,düzüm şumlanacaq,**
**Dünya qandan qurtulacaq.**
**Bir türkü de...**
**Bir türkü de...**

**Ulu xaqanların nəfəsi,**
**``Haqq`` deyənlərin**
**Ölməz haqq səsi,**
**Göylərdən səsi gələn**
**Ulum-ulusum...**
**Bir türkü de...**
**Bir türkü de...**

**Ərənlərin nəriltisini,**
**Atlarin kişnərtisini,**
**Nalinin cingiltisini,**
**Eşidirşənmi...**
**Eşidirsənmi...**
**Bir türki de...**
**Bir türki de...**

**Çiyində günəş tayasi...**
**Ozan ərən , bizdən küsdü.**
**Təzə mənzilinə tələsdi...**
**Bir türkü de...**
**Bir türkü de...**

**Haqqa pərçimlənib yola çıxanim,**
**Haqqin zirvəsindən**
**Haqqa baxanım.**
**Şimşək qanadlim**
**Sınmaz inadlım...**
**Bir türkü de...**
**Bir türkü de...**

**Dünya köhnə,səndə köhnə,**
**Zaman bu gün köhnə səhnə,**
**-Xanə-xərab bir bəhanə...**
**Bir türkü de...**
**Bir türkü de...**

**Gündoğandan doğan Günüm,**
**Yerdən-göydən yağan Günüm,**
**Zülmətləri boğan Günüm,**
**Ölməz günüm,ölməz günüm,**
**Bir türkü de...**
**Bir türkü de...**

**Ruhunu küləklər çaldı,**
**Zaman bizlərdən bac aldı,**
**Şerimiz vaxtsız qocaldı,**
**Bir türkü de... Bir türkü de..**

### *ERMƏNİSƏN Kİ, ERMƏNİ...*

*Birinci Pyotrun vaxtında ermənilərin bir şüarı var idi: "Öldürüb talamaq, talayıb öldürmək".*

**Yırtıq ayaqqabıma,**
**Gözün düşdü,**
**verdim,**
**Sən də aldın.**
**Nə olsun ki,**
**yenə pis günə qaldın...**
**Başqa adın yox,**
**ermənisən ki, erməni...**

## *Mədəniyyət Nazirliyi tərəfindən beynəlxalq təşkilatlara müraciət ünvanlanıb*

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

**Azərbaycan Respublikası Mədəniyyət nazirinin birinci müavini, Mədəniyyət nazirinin vəzifələrini icra edən Anar Kərimov tərəfindən UNESCO-nun Baş direktoru Odre Azuley, ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd Əl-Malik və BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Angel Moratinosa müraciət ünvanlanmışdır.**

Müraciətdə cari ilin 27 sentyabr tarixindən etibarən Ermənistan silahlı qüvvələrinin cəbhə xəttində hərbi təxribat törətməsi və Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması diqqətə çatdırılır, yaşayış məntəqələrinə ağır artilleriya atəşləri nəticəsində dinc sakinlər arasında ölən və yaralananların olduğu, həmçinin mülki obyektlərə, yaşayış binalarına, müxtəlif tikililərə, o cümlədən maddi mədəni irs nümunələrinə ziyan dəydiyi bildirilir.

Müraciətdə BMT Təhlükəsizlik Şurasının işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi ilə bağlı 822, 853, 874 və 884 saylı qətnamələrinin qeyd-şərtsiz icra olunmasının vacibliyi qeyd olunaraq, Ermənistan tərəfdən mülki əhali və obyektləri, tarixi abidələri hədəfə almasının beynəlxalq humanitar hüququn, o cümlədən "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyası və onun 1999-cu ildə imzalanmış İkinci Protokolunun, "Dünya mədəni və təbii irsinin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının, hərbi münaqişələr zamanı mülki şəxslərin qorunması ilə bağlı 1949-cu il Cenevrə konvensiyaları və Əlavə Protokollarının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və digər beynəlxalq hüquq normalarının kobud şəkildə pozulmasının bu ölkənin təcavüzkar siyasətini davam etdirməsinin göstəricisi olduğu vurğulanır.

**Müraciətin sonunda Anar Kərimov sözügedən beynəlxalq təşkilatları Ermənistanın beynəlxalq hüquqa zidd əməllərini pisləməyə və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalına son qoyulması üçün səy göstərməyə çağırıb.**

# "Şanlı ordumuz düşməni susdurur"

**"Hər kəsə məlumdur ki, Ermənistan havadarlarının köməkliyi ilə torpaqlarımızı işğal edib. Azərbaycan xalqı sülhsevərdir, müharibə istəmir, fəqət azğın düşmən torpaqları qaytarmaq fikrində deyil. Ermənistan nə BMT-nin 4 qətnaməsinə əməl edir, nə də tarixi torpaqlarımızı geri qaytarır. Sülh danışıqlarına gəlmir, mütəmadi olaraq atəşkəsi pozur. Artıq xalqın səbr kasası daşıb. İnanıram ki, Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin rəhbərliyi altında bütöv Qarabağımızı işğaldan azad edəcəyik. Hər gün doğma torpaqlarımızın bir hissəsi yadelli işğalçılardan geri alınır".**



Bu sözləri "Ədalət" qəzetinə açıqlamasında filologiya elmləri doktoru, professor Vüqar Əhməd söyləyib:

"27 sentyabr tarixində ermənilərin atəşkəsi pozması nəticəsində əks-hücum əməliyyatı başladı. Bu 2-ci Qarabağ savaşıdır. Şanlı ordumuz düşməni susdurur. Şərəfsiz ermənilər isə beynəlxalq hüquq normalarına riayət etməyərək, hətta beynəlxalq hüququ kobud şəkildə pozaraq mülki əhalimizə müxtəlif növlü silahlardan istifadə etməklə atəşlər açır, günahsız insanları öldürürlər. Bunlar böyük cinayətlərdir. Azərbaycan ərazisinə raketlərdən atəş açılması müharibə cinayətidir. Törətdikləri əməllər erməni vandalizminin mahiyyətini izah edir. Baxın, saymaqla bitməyən yüzlərlə erməni cinayətləri var. Xocalı soyqırımı bu cinayətlər arasında ən böyüyüdür. İnsanlığa, bütövlükdə humanizmə sığmayan Xocalı soyqırımı beynəlxalq cinayətdir.

1948-ci ildə BMT Baş Assambleyası tərəfindən 260 A saylı qətnamə ilə qəbul edilmiş "Soyqırım cinayətinin qarşısının alınması və ona görə cəzalar" konvensiyası, Nürnberq Hərbi Tribunalının Nizamnaməsi, Beynəlxalq Cinayət Tribunalının Yuqoslaviya üzrə Nizamnaməsi (4-cü maddə), Beynəlxalq Cinayət Tribunalının Ruanda üzrə Nizamnaməsi (1-ci maddə) Xocalı soyqırımının beynəlxalq hüquq tərəfindən soyqırım cinayət aktı kimi tanınmasının hüquqi əsaslarını formalaşdırır.

Ermənilər işğal etdikləri Azərbaycan torpaqlarında nələr etməyiblər?! Bu torpaqlar bizə məxsusdur. Amma onlar orada bizim mədəniyyət abidələrimizi, məscidlərimizi, məktəblərimi dağıdıblar, məhv ediblər. Bunların hər biri cinayətdir.

İnanırsınız, Qarabağı tez-tez yuxularımda görürəm. Bir dəfə yuxularımdan birini də qələmə almışdım:

*"Şuşanı yuxumda gördüm dün gecə,*
*Şəhərim bərbaddı, İlahi necə?!*
*Gecəykən röyada gündüz, həm gecə,*
*Cənnət bağındayam-Qarabağdayam".*

**Allah Azərbaycan ordusunu var eləsin. Allah Cənab Prezident İlham Əliyevi qorusun. Cənab Prezidentin düzgün və uğurlu siyasətinin nəticəsində Azərbaycan bu gün öz torpaqlarını geri alır. Haqq bizimdir. Cənab Prezident İlham Əliyev demişkən: "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır".**

**Rövşən Tahir**

# "Anam 36 yaşında dul qaldı"

## ŞƏHİD QIZI DANIŞIR

*"30 ildə ilk dəfədir ki, mən fikirləşirəm, şəhidlərimizin ruhu sevinir. Fikirləşirəm, Şəhidlər Xiyabanına gedəndə, şəhidlərin fotolarına baxanda artıq utanmayacam. Onlara ürəklə deyəcəm ki, intiqamınız alındı (hömkürtü ilə ağlayır)". "Ədalət" qəzetinin qonağı Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının aktrisası, Əməkdar artist şəhid Aslan Ağaverdiyevin qızı Məsmə Aslanqızıdır.*

**-"Ən gözəl günlərim atamla olub". Atanızla bağlı xatirələrinizdən danışaq...**

-Atam Aslan Ağaverdiyev 1990-cı il 20 yanvar hadisələrində şəhid olub. O vaxt mənim 11, böyük bacımın 13, kiçik bacımınsa 6 yaşı var idi. Atam çox mülayim, mehriban, gülərüz insan idi. 11 yaşıma kimi atamla demək olar ki, Azərbaycanın bütün bölgələrini gəzmişəm. Atama qədər uşaqlıq illərim çox mənalı, çox yaddaqalan olub. Yadımdadır, bir çadırımız var idi, onu həmişə meşəyə gedəndə özümüzlə götürüb aparırdıq, bəzən elə olurdu ki, 2-3 gün o çadırda qalırdıq. Atam heç vaxt üstümüzə qışqırmazdı, heç vaxt xətrimizə dəyməzdi. Amma bununla yanaşı zəhmi və sözünün kəsəri var idi. Onun bir baxışından anlayırdıq ki, nəyisə düz etməmişik.

*"Səhərə kimi küçədə qapının ağzında dayanıb atamı gözlədik"*

**-Atanız şəhid olanda 6-7 yaşınız olub. O günü necə xatırlayırsınız?**

-80-ci ilin sonunda ermənilər ki, azərbaycanlıları öz torpaqlarından qovurdular, o zaman Bakıda da çaxnaşma yarandı. Hər kəs kimi bizim ailə də sarsıldı. Atama belə hadisələr çox pis təsir edirdi. Elə bir küçədə yaşayırdıq ki, qonşularımızın arasında ermənilər də var idi, ruslar da, ləzgilər də, tatarlar da. Anamla işləyən Roza müəllim erməni idi. O, həmişə stolumuzun yuxarı başında əyləşib, bütün bayramlarda bizimlə birlikdə olub. Heç vaxt ermənilərə ögey münasibət göstərməmişik. Amma ermənilərin biz, azərbaycanlılara qarşı bu cür münasibət göstərməyi bizi sarsıtdı. O vaxt atam Azadlıq Meydanında mitinqlərdə iştirak edirdi, daha sonra yanvarın 19-dan 20-nə keçən gecə evə gəldi və narahatcasına anama dedi ki, hiss edirəm, bu gün nəsə olacaq, çünki vəziyyət yaxşı deyil. Yanvarın 21-i atam dünyasını dəyişdi. Hərdən düşünürəm də, anam 36 yaşında dul qaldı və 3 qız övladını tək başına böyütdü. Həmin vaxtları belə xatırlayıram, əvvəl partlayış səsi gəldi, sonra atışma səsləri başladı. Atışma səsləri başlayanda atam evdən çıxdı. Yadımdadır, anam ona soyuq olmasın deyə paltosunu da verdi. Atam getdi və bir daha geri qayıtmadı. Bir-iki saat sonra babam atamın arxasınca getdi və geri döndü. İçində narahatçılıq olsa da, bunu biruzə vermək istəmirdi. Deyirdi ki, narahat olmayın, Aslan harada olsa, qayıdacaq. Səhərə kimi küçədə qapının ağzında dayanıb atamı gözlədik. Səhərə yaxın balaca bacımla getdik yatmağa. Saat 7 radələrində anamın yüksək səslə telefonla danışığına ayıldım. Mərkəzi Kliniki Xəstəxanadan zəng edib anama demişdilər ki, Aslan ayağından yüngül yaralanıb. Yaxşı xatırlayıram, anam deyirdi ki, iki ayağı olmasın, əlil arabasında olsun, evə şikəst gəlsin, amma balalarının üstündə olsun. Anamgil xəstəxanaya getdilər və bəlli oldu ki, atam ayağından deyil, qarın nahiyəsindən yaralanıb. O zaman istifadə edilən güllələr 1982-ci ildə qadağan olunmuş güllələr idi, çünki həmin güllənin yalnız biri insanın daxili orqanlarını darmadağın edirdi. Atam o güllə ilə vurulduğundan daxili orqanları paramparça olubmuş. Əməliyyat vaxtı işıqları da kəsmişdilər, atamı lampa işığında əməliyyat etmişdilər. Ona həmin gecə çoxlu qan vurulmuşdu, lakin qan bədənində dövran etmədiyinə görə yanvarın 21- də biz onu itirdik.



**-Şəhid övladı olmağın məsuliyyəti böyükdür, bu ad qürur doludur...**

-"Şəhid övladı" adını daşımaq qürurludur. Mən həmişə "20 Yanvar" şəhidləri ailələrinə deyirəm ki, biz "Qarabağ" şəhidləri ailələrinə dəstək olmalıyıq. Hər dəfə ürəyimdən keçir ki, General Polad Həşimovun ailəsinə baş çəkim, onun övladları ilə görüşüm və deyim ki, siz tək deyilsiniz, sizin acınız bizim acımızdır, sizin qürurunuz bizim qürurumuzdur. Bunu yerinə yetirəcəm.

*"20 Yanvar haqqında tutarlı bir film çəkilməyib"*

**-Müxtəlif rolları canlandırırsınız. Heç olubmu ki, hansısa bir rolu canlandırarkən atanız gözünüzün önünə gəlsin?**

-Atamın yoxluğunu hər yaşımda hər an hiss elədim, hər an. Məktəbi bitirəndə, ali məktəbə qəbul olanda, bacılarım ailə həyatı quranda, böyük bacımın oğlu dünyaya gələndə, mən ailə quranda, hər zaman hiss elədim. Kaş ki, atam bizim bu günlərimizi görərdi. Həmişə evimizdə şad bir xəbər olanda Şəhidlər Xiyabanına gedib onu atama çatdırmışıq.

**-Akademik Milli Dram Teatrının repertuarında, ümumən digər teatrlarımızın repertuarında hərbi-vətənpərlik mövzuları bir o qədər də geniş deyil. Nə düşünürsünüz, tam zəfərdən, qələbədən sonra teatrlarımız repertuarlarında dəyişiklik edəcəklərmi, bu mövzuya üstünlük veriləcəkmi?**

-Çox təəssüf hissi ilə deyəcəm ki, Dram Teatrında Vətənpərvərlik mövzusunda yalnız "Qarabağnamə" tamaşası var. Bir tamaşa da var idi, "Ana intiqamı", sonradan o da repertuardan çıxarıldı. Əlbəttə, mütləqdir ki, hər teatrın Vətənpərvərlik ruhunda tamaşaları olsun ki, gənclərimiz, məktəblilər gəlib o tamaşalara baxsınlar. Ən böyük arzularımdan biri budur ki, 20 Yanvar hadisələri haqqında layiqli, dəyərli bir ssenari yazılsın və bu ssenari əsasında dəyərli bir film çəkilsin və mən həmin filmdə təmənnasız oynayım. Təəssüf ki, üstündən 30 il keçməsinə baxmayaraq 20 Yanvar haqqında tutarlı bir film çəkilməyib.

**-Ermənilərin xalqımıza qarşı törətdiyi cinayətlər saya-hesaba gəlməzdir...**

-Düz vurğulayırsınız. Ermənilərin xalqımıza qarşı o qədər cinayəti olub ki, hansından danışım?! 20 Yanvardanmı danışım? Xocalı Soyqırımındanmı danışım? Hansından danışım? Ermənilərin törətdiyi vəhşiliklərin sayı o qədər çoxdur ki...

**-Bu günlərdə xoş xəbərlər bir-birini üstələyir, torpaqlarımız işğaldan azad olunur...**

-Neçə gündür, gözümə yuxu getmir. İnanırsınız, sevinməkdən də qorxuram. Amma içimdə elə bir hisslər var ki, onu dilə gətirmək üçün söz tapa bilmirəm. Hazırda başım ağrıyır, təzyiqim yüksəkdir, çox sentimental olmuşam, dindirirlər, ağlayıram. Bütün bunlar hamısı sevincdəndir. 30 ildə ilk dəfədir ki, mən fikirləşirəm, şəhidlərimizin ruhu sevinir. Fikirləşirəm, Şəhidlər Xiyabanına gedəndə, şəhidlərin fotolarına baxanda artıq utanmayacam. Onlara ürəklə deyəcəm ki, intiqamınız alındı (hömkürtü ilə ağlayır).

Allah bizi tam qələbə ilə sevindirsin. Əsgərlərimizin qarşısında baş əyirəm, onları böyüdüb boya-başa çatdıran, onlara tərbiyə verən anaların əllərindən öpürəm. Əsgərlərimizə səslənirəm, ailələrinizdən narahat olmayın, onlar tam etibarlı əllərdədirlər. Dövlətimizin, xalqımızın, millətimizin qayğısı onlardan əskik deyil. Allah xalqımızı qorusun.

**Rövşən Tahir**

# "Şuşanın hər küçəsi, hər daşı bir abidədir"

*"Mən bir yaşımda Şuşanı tərk etməyə məcbur olmuşam. Yaxşı xatırlayıram, dil açanda ilk kəlimələrim bunlar olub: "Atdılar, düşdü". Ona görə də indiki vəziyyətdə Qarabağ ətrafındakı zonalarda olan insanlarımızı, xüsusən körpələrimizi çox gözəl başa düşürəm". "Ədalət" qəzetinin qonağı xanəndə Günay xanım İmamverdiyevadır.*

**-Günay xanım, Şuşadansınız, amma Şuşanı görməmisiniz. Valideynləriniz Şuşa haqqında sizə nə söyləyiblər?**



-İlk olaraq onu deyim ki, sözlərimi ifadə edə bilməyəcək qədər həyəcanlıyam. Çox həyəcanlı bir günlər yaşayırıq. İllərdir, arzusunda olduğumuz, hər saniyə, hər dəqiqə geri qayıtması dualarını etdiyimiz, istər həyatımızda, istər ifamızda heç bir zaman unutmadığımız Qarabağımızı işğaldan azad edirik. Bu günlər münasibətilə bütün xalqımızı təbrik edirəm. Allahdan tam şəkildə bütün Qarabağımızın işğaldan azad olunmağını arzulayıram.

Şuşa haqqında valideynlərim elə bir şeylər danışıblar ki, onları həyatı boyu yadımdan çıxara bilmərəm. Valideynlərimin danışdıqlarını xarakterizə etsəm, deyərəm ki, onları dinlədikcə Şuşada olmamağımın həsrətini çəkmişəm. Mən bir yaşımda Şuşanı tərk etməyə məcbur olmuşam. Yaxşı xatırlayıram, dil açanda ilk kəlimələrim bunlar olub:

"Atdılar, düşdü". Ona görə də indiki vəziyyətdə Qarabağ ətrafındakı zonalarda olan insanlarımızı, xüsusən körpələrimizi çox gözəl başa düşürəm. Allah xalqımızı qorusun.

*"Şuşa Qafqazın konservatoriyası, mədəniyyət beşiyidir"*

**-Sizinlə müsahibə edəndə bir parça "Xarı bülbül" mahnısından ifa etmişdiniz, səsinizdəki o nisgil hələ də qulağımdadır...**

-Bir neçə insandan bu sözü eşitmişəm ki, səsində nisgil var, gözlərində Şuşa həsrəti var. Həmişə Qarabağla bağlı mahnıları oxuyanda kədərlənirdim. Sanki ürəyimdə bir yara var idi, bax o qədər ürəyim göynəyirdi.

Şuşa mənim üçün, atam, anam üçün, doğmalarım üçün həsrət, nisgil, arzudur. 30 ildir ki, oranın həsrətindəyik. Valideynlərim hər zaman Cıdır düzündən, İsa bulağından söhbət açanda kövrəlirəm. Şuşanı qarış-qarış gəzmək istəyirəm. Şuşa mənim üçün doğmalarımın məzarını görməkdir, Şuşa mənim üçün hər şeydir. Bu günlərdə yenə də deyirəm, o qədər həyəcanlıyam ki. Həyəcanla sevinc arasında qalmışam. İnanıram ki, Allahın köməkliyi ilə Ordumuz tez bir zamanda Şuşanı da işğaldan azad edəcək. O zaman əlimi açıb Allaha söyləyəcəm ki, şükür sənə, Ya Rəbb. *(səsi titrəyir)*

**-Şuşa həm də mədəniyyət mərkəzimizdir...**

-Şuşanın mədəniyyəti haqqında tək mən yox, dahi insanlar belə danışıblar və danışırlar. Dramaturqlar, musiqişünaslar öz əsərlərində Şuşanın tarixi mədəniyyəti haqqında qeyd ediblər. Şuşa tək Azərbaycanın yox, bütövlükdə Qafqazın konservatoriyası, mədəniyyət beşiyidir.

Şuşa Əbdürrəhman bəy Haqverdiyevdir, Şuşa Süleyman Sani Axundovdur, Şuşa Üzeyir bey Hacıbəyovdur, Şuşa Niyazidir, Şuşa Xan Şuşinskidir, Şuşa bütün Azərbaycan mədəniyyətinin inciləri deməkdir. Saysız-hesabsız incəsənət nümayəndəsinin adını qeyd etmək olar ki, Şuşanın mədəniyyətinin necə gözəl olduğunu görəsən. Şuşanın hər küçəsi, hər daşı bir abidədir.

Bunu hər birimiz Şuşanın fotolarına baxanda sezə bilərik.

*"Bir otaqlı daxmamız olsun, amma bilək ki, Şuşadadır"*

**-Artıq bir neçə ildir ki, Şuşa işğal altındadır. Müxtəlif KİV-lərdə Şuşanın son vəziyyəti ilə bağlı yayılan məlumatları, şəkilləri görəndə hansı hissləri keçirirsiniz?**

-İllərdir, bu videoları görürük. "Youtube"dən Şuşanı axtarışa verib videosunu tapırdıq ki, görək, nəsə bir dəyişiklik var? Həqiqətən, Şuşa eyni Şuşadır. Bir şeyi deyim, evimizin şəkillərini də görmüşəm. Təsəvvür edin, o qədər acizdirlər ki, atamgilin yaşadığı binanı hotel ediblər. Bu dərəcədə acizdirlər. Bu videoları həmişə göz yaşı ilə izləyirdik. Bu gün müharibədir orada. Təbii ki, dağıntılar da olacaq. Allah o günü qismət etsin ki, Şuşamıza qayıdıb dişimizlə, dırnağımızla evlərimizi yenidən tikək. Eybi yox bir otaqlı daxmamız olsun, amma bilək ki, doğma torpağımızdadır, Şuşadadır.

**-Tarixi bir zərurət yetişib ki, artıq torpaqlarımız azad olunur. Təsəvvür edin ki, "Şuşamız işğaldan azad olundu" xəbərini eşidirsiniz...**

-Hər insanın ürəyində bir arzu var. İllərdir, mənim də ürəyimdəki arzu "Şuşa işğaldan azad olundu" xəbərini eşitməkdir. Bu xəbəri eşitdiyim gün bilmirəm, necə sevinərəm. Yəqin ki, diz çöküb ağlayaraq Allaha təşəkkür edərəm.

Necə ki, işğaldan azad olunan torpaqlarımız üçün bunu edirəm, eynisini də Şuşanın azad olunması xəbərini eşitdiyim an edərəm (kövrəlir).

**- Şuşa işğaldan azad olunduqdan sonra orada ilk görəcəyiniz iş nə ola bilər?**

-Görəcəyim ilk iş isə Gövhər Ağa məscidinə gedib əhd etdiyim qurbanı kəsmək olacaq. İnşaAllah!

*"Allah Ordumuzu qorusun"*

**-"Vətən bağı al-əlvandır, Yox içində Xarı bülbül". Bir Şuşalı kimi soruşuram, nə düşünürsünüz, bu sözləri torpaqlarımız alınandan sonra "Var içində xarı bülbül" sözləri ilə əvəz edib oxuyaqmı? Bəlkə, o nisgili sevinclə əvəzləyək?**

*-"Vətən bağı al-əlvandır,*
*Var içində Xarı bülbül"*

Çox gözəl səslənir. Sözlərlə ifadə etmək belə adama qürur verir. Elə bir gün yoxdur ki, atam, anam yuxudan durub deməsin ki, bu gecə Şuşadaydım. Allaha qurban olum, o günü qismət etsin. Bu 30 ildə olmayacaq qədər ürəyimizdə hazırda inam var. Göydə Allaha və yerdə Ali Baş Komandana, Azərbaycan Ordusuna inam var. İnşaAllah Şuşa azad olunsun, elə mən də bu mahnını orada ifa edim.

**-Azərbaycan Ordusuna ürək sözləriniz varmı?**

-Azərbaycan Ordusuna sözüm bu ola bilər ki, mən onların qarşısında baş əyirəm ("Baş əyirəm" ifadəsini xüsusi vurğu və intonasiya ilə səsləndirir). Vətən uğrunda canından keçən igid oğlanlarımızın qarşısında baş əyirəm. Allah onlara rəhmət eləsin. Azərbaycanın əsgərlərinə, zabitlərinə təşəkkür edirəm ki, tarixi torpaqlarımıza qovuşmaq üçün vuruşurlar. Allah Ordumuzu qorusun *(ağlayır)*.

**Rövşən Şakiroğlu**

# NƏCİB TƏŞƏBBÜS

## Bütün xalq ordunun yanındadır, orduya dəstəkdir!

**Sentyabrın 27-si səhər saatlarından başlayan Azərbaycan torpaqları uğrunda döyüşlər artıq 9 gündür ki, davam edir. Ermənilər tərəfindən işğal olunan ərazilərin geri qaytarılması uğrunda gedən döyüşlər, Azərbaycan ordusunun düşmən üzərindəki üstünlükləri xalqda böyük ruh yüksəkliyi yaradıb.**

Hər kəs bu qələbəyə, bu zəfərə bir kömək, bir yardım etmək üçün sanki yarışa çıxıb. Orduya dəstək məqsədilə xalq könüllü səfərbərliyə gedir, əsgərlərin ərzaq, su və s. ehtiyatlarını ödəmək üçün yardımlar edir, yaralılara kömək üçün qan verməyə çalışırlar.



Bunlarla yanaşı, ölkəmizdə fəaliyyət göstərən hökumət və qeyri-hökumət müəssisələri, şirkətlər, imkanlı şəxslər Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna ianələr etməklə ordumuza və dövlətimizə dəstək kampaniyasını həyata keçirirlər. Son günlər Azərbaycan Ordusunun ön xətt bölmələrinə müxtəlif növ yardımların edilməsi ilə bağlı xeyli sayda müraciət daxil olur.

Müdafiə Nazirliyi Ordumuza göstərilən diqqət və qayğıya görə xalqımıza dərin minnətdarlığını bildirir. Hazırda Azərbaycan Ordusunun hərbi hissələri, xüsusilə də ön xətt bölmələri bütün təminat növləri ilə tam təmin olunub və əlavə yardıma ehtiyac yoxdur. Azərbaycan əsgərinin yalnız xalqımızın mənəvi dəstəyinə ehtiyac var ki, bu da daim göstərilir".

Vətənsevər xeyriyyəçilər israrla yardımları çatdırmaq fikrində olduqlarını bildirdikdən sonra nəhayət, yardımlar qəbul edildi və xeyli miqdarda yardım bağlamalarını lazımi yerə təhvil verildi. Bu nəcib təşəbbüsə Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyi də qoşulub. Birliyin sədri Radə Abbasın təşəbbüsü ilə filologiya üzrə fəlsəfə doktoru, AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun "Türk xalqları ədəbiyyatı"şöbəsinin böyük elmi işçisi, Qarabağ qazisi Fəridə Hicran, texniki elmlər doktoru Qəzalə Xeyirabadi, Qarabağ rayonu Müşfiqabad qəsəbəsi məscidi icmasının sədri Hacı İrşad Süleymanov və Hacı Məcnun, tarix elmləri üzrə fəlsəfə doktoru Ramazan Hüseynli, şəhid Vasif Məmmədovun xanımı Ceyran Əzizova, Qarabağ qazisi Solmaz Əliyeva, Qarabağ qazisi Ceyran Əzizova, Qarabağ qazisi Cahandar Abbasov, müstəqil jurnalist Pərvin Abışova, Müharibə Veteranı Qadınlarına Sosial Yardım İctimai Birliyinin mətbuat xidməti katibi Svetlana Osmanlı, "Ay" klinikasının baş həkimi Arzu Ələkbərova yardım kampaniyasının təşkilində və çatdırılmasında yaxından iştirak ediblər.

Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov xeyirxah təşəbbüskar və yardımsevərləri salamlayaraq, Azərbaycan Müdafiə Nazirliyi vətəndaşlara müraciətini onlara xatırlatdı.

**"Azərbaycan Ordusu dövlətimizin, şəxsən Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin hərtərəfli diqqət və qayğısı ilə əhatə olunub. Şəxsi heyətin təchizatı, təminatı və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində fəaliyyətlər bu gün də davam etdirilir".**

**Əntiqə RƏŞİD**
**"Ədalət" qəzetinin**
**Qarabağ bölgəsi üzrə xüsusi müxbiri**

**Kürdəmir rayon, Garıs-Əyribənd kəndində yerləşən Nadirov Elbəyi Cahangir oğluna məxsus 24 sentyabr 1994-cü il tarixli 09 saylı qərarla verilmiş JN:133, kod 90611058 olan torpağın mülkiyyətə aid Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Məmmədov Həsən Xəlil oğlunun adına verilmiş Bakı şəhər, Cəlil Məmmədquluzadə küçəsi ev 108 ünvanında inşa olunan binanın zirzəmisində yerləşən 55 saylı qarajın sənədi itdiyi üçün etibarsız sayılır.**

***

**Samux rayon Alıuşağı kənd sakini Süleymanov Cehun Rizvan oğluna məxsus VAZ 21013 markalı minik maşınının 10-CZ-695 dövlət nömrə nişanı itdiyi üçün etibarsız sayılır.**

Aqil Abbas və "Ədalət" qəzetinin kollektivi **Elşad Paşasoya** əzizi

**Əli Rzalının**

şəhid olmasından kədərləndiklərini bildirir və şəhidin bütün doğmalarına dərin hüznlə başsağlığı verirlər.

**Vətən sağ olsun!**

Əliyev İlqar Muxtar oğlu ailəsi ilə birgə, polkovnik

**ŞABANOV FİRUDİN ŞƏRİF OĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ağasəfa, Ş.Nəzirli, Q.İsabəyli, Ə.Mədətoğlu, Ə.Xələfli və A.Səmədov **şair Tariyel Ümidə,** yeznəsi, gizir

**Mais Şadbəy oğlu Səmədovun**

Vətən torpaqları uğrunda şəhid olmasıyla bağlı dərin hüznlə başsağlığı verirlər.


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 22
Çapa imzalanmışdır:
07.10.2020